AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 5 (1405), 29 yanvar - 4 fevral 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Cüdoçularımız Qran-pri turnirini 2 medalla başa vurdular

İsrailin paytaxtı Təl-Əvivdə keçirilən cüdo üzrə Qran-pri turnirinə yekun vurulub. 53 ölkədən 373 cüdoçunun mübarizə apardığı yarışda ölkəmiz 18 idmançı ilə təmsil olunub. 3 gün davam edən Qran-pri turniri Azərbaycan cüdoçuları üçün uğurlu olub. Qadınların mübarizəsində ölkəmizi təmsil edən İrina Kindzerska (+78 kq) beynəlxalq turnirin qalibi adına layiq görülüb. Ardıcıl fransalı Laura Fuseau, litvalı Sandra Yablonskyte və sloveniyalı Anamari Velenşeki üstələyərək finala yüksələn İrina həlledici qarşılaşmada ukraynalı Yelizaveta Kalaninanı məğlub edərək qızıl medal qazanıb.

Kişilər arasında 90 kq çəki dərəcəsində yarışan Məmmədəli Mehdiyev isə millimizə bürünc medal qazandırıb. Təmsilçimiz ardıcıl olaraq türkmənistanlı İhlas Setderovu və kanadalı Mohab El Nahası məğlub etsə də, dörddəbir finalda hollandiyalı Jesper Sminkə uduzub. İdmançımız təsəlliverici görüşdə ABŞ təmsilçisi Kolton Braun və estoniyalı Klen Kristofer Kalyulayd üzərində qələbə qazanaraq bürünc medala layiq görülüb.

Digər təmsilçilərimizdən İbrahim Əliyev (66 kq), Murad Fətiyev (81 kq) və Uşangi Kokauri (+100 kq) 5-ci yerlə kifayətlənib.

Bu nəticə ilə cüdo üzrə Azərbaycan yığması Belarus, Belçika, Sloveniya, Ukrayna, Rusiya, Hollandiya, İsveçrə və başqa ölkələri qabaqlayaraq beşinci yerdə qərarlaşıb.

## Tokio-2020 Oyunları ilə əlaqədar yoxlama yarışlarının cədvəli elan edilib

Tokioda 2020-ci ildə keçiriləcək Olimpiya və Paralimpiya Oyunlarının təşkilat komitəsi yoxlama yarışlarının cədvəlini elan edib.

Yoxlama yarışları Oyunların keçiriləcəyi idman obyektlərində təşkilati işləri, o cümlədən yarışların gedişini və tamaşaçıların müşayiət olunmasını yoxlamaq məqsədilə təşkil ediləcək. Gələn ilin mayınadək 56 belə yarışın təşkili nəzərdə tutulur.

Hazırda təşkilat komitəsi 51 yoxlama yarışının cədvəlini elan edib. Həmçinin qeyd edilir ki, Beynəlxalq Olimpiya Komitəsi boks üzrə beynəlxalq təşkilatların fəaliyyətini dayandırıb.

Cədvələ əsasən açıq havada təşkil ediləcək yarışlar iyun-sentyabr aylarında keçirilməlidir. Buraya çimərlik voleybolu, qolf, həmçinin Olimpiya proqramına yeni salınan dağadırmanma kimi idman növləri daxildir. Təşkilat komitəsi, eyni zamanda, yayın istisinin idmançılara təsirini də araşdırmaq niyyətindədir.

## Qitə çempionatı üçün üç namizəd şəhər

İsveçin Göteborq şəhəri, Polşanın Sileziya regionu və Belarusun paytaxtı Minsk 2024-cü ildə keçiriləcək atletika üzrə Avropa çempionatına ev sahibliyi etmək üçün namizəd seçilib.

Bu qərardan sonra Avropa Atletika Assosiasiyasının (AAA) İcraiyyə Komitəsinin nümayəndələri namizəd ölkələrdə görüşlər keçiriblər. Görüşlərin əsas mövzusu namizədlər tərəfindən təqdimatların qiymətləndirilməsi və əsas konseptlərin müzakirəsi olub.

Əsas məqsəd üç ölkə arasından strateji, maliyyə və əməliyyatlar baxımından iki güclü namizədi seçmək və 2020-ci ilin aprelində qiymətləndirilməsi üçün AAA-nın İcraiyyə Komitəsinə təqdim etməkdir.

Atletika üzrə növbəti Avropa çempionatı 2020-ci ildə Tokio Yay Olimpiya Oyunlarından sonra - avqustun 26-30-da Parisdə keçiriləcək.

## *olimpnews.az saytı “Zəfər” Beynəlxalq İdman Mükafatına layiq görülüb*



Yanvarın 25-də “Marriott” hotelində “Zəfər” Beynəlxalq İdman Mükafatının təqdimat mərasimi keçirilib.

Tədbirdə idman ictimaiyyətinin nümayəndələri, millət vəkilləri, Olimpiya, dünya və Avropa çempionları iştirak ediblər.

Mükafatlandırma mərasimində müxtəlif nominasiyalar üzrə qaliblər təltif olunublar.

Tədbirdə olimpnews.az saytı da mükafatlandırılanlar arasında yer alıb. Saytımız ilin idman portalı mükafatına layiq görülüb. Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti Eldar İsmayılov “Zəfər” beynəlxalq idman mükafatını olimpnews.az saytının direktoru Aslan Şirəliyevə təqdim edib.

## FİG-in məşqçilik kurslarının nəticələri açıqlanıb

Səh. 2

# Olimpizm

### *Olimpiya çempionu dopinqə görə diskvalifikasiya olunub*

Uzun məsafəyə qaçış üzrə keniyalı atlet dopinq qalmaqalı ilə üzləşib. Keniya idmançısı Jemima Sumqonq antidopinq qaydalarını pozduğu üçün diskvalifikasiya olunub. Bu barədə Beynəlxalq Atletika Federasiyaları Assosiasiyasının (IAAF) mətbuat xidmətindən bildirilib. Otuz dörd yaşlı idmançı səkkiz il müddətinə yarışlardan kənarlaşdırılıb. O, 2017-ci ildə qadağan olunmuş eritropoietindən istifadəyə görə dörd il diskvalifikasiya edilmişdi.

J.Sumqonq 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarının marafon yarışlarının qalibi olub.

### *İPC İcraiyyə Komitəsinin iclası keçirilib*

Beynəlxalq Paralimpiya Komitəsi (İPC) Pekin-2022 Qış Olimpiadası çərçivəsində yarışların proqramını müəyyənləşdirib. Bu barədə İPC-in rəhbəri Endryu Parsons jurnalistlərə açıqlamasında məlumat verib.

İPC İcraiyyə Komitəsinin iclası yanvarın 24-27-də Londonda keçirilib.

“Biz Pekin-2022 Qış Olimpiadası çərçivəsində yarışların proqramını müəyyənləşdirdik. Çox sevinirəm ki, proqrama qadınlar arasında bir neçə yarış daxil edə bildik. Bu qış olimpiadası üçün xüsusilə, müsbət addımdır. Bu addım çox güman ki, bizim sahədə qadın idmançıların sayını artıracaq”, - deyə Endryu Parsons bildirib.

İPC-in qərarına görə, Pekin-2022 Olimpiadasında ümumilikdə, 748 idmançı 82 dəst medal uğrunda mübarizə aparacaq. Pekin-2022 Olimpiadası 4-13 martda Çinin paytaxtında keçiriləcək.

### *Xanım məmur böyük məbləğdə cərimə tələb edib*

Beynəlxalq Antidopinq Agentliyinin (WADA) vitse-prezidenti Linda Hofstad Helleland Rusiya Antidopinq Agentliyinə (RUSADA) qarşı iddia qaldıraraq, ondan kompensasiya istəyib.

Norveçli nazir (uşaqların işi və hüquqları üzrə) Linda Hofstad Helleland dopinq qalmaqalına görə Rusiyaya qarşı iddia qaldırıb. WADA İcraiyyə Komitəsinin 12 üzvündən yalnız xanım məmur RUSADA-nı dəstəkləməyib və bu qalmaqala görə ruslardan böyük məbləğdə cərimə tələb edib.

əziz OXUCULAR!

Olimpiya dünyası-na 2019-cu il üçün abunə yazılışı davam edir.

OLİMPİYA DÜNYASI

Abunə yazılışının

3 aylıq qiyməti - 6 manat (1 nüsxə)
6 aylıq qiyməti - 12 manat (1 nüsxə)
12 aylıq qiyməti - 24 manat (1 nüsxə)

Abunə yazılmaq üçün
- “Azərmətbuatyayımı” İB-ə (tel: 440 39 83)
- “Qaya” (tel: 565 67 13)
- “Səma” (tel: 596 22 97)
- “City Press” (tel: 437 28 10)
- “Kaspi” (tel: 432 39 55)

mətbuat yayımı firmalarına müraciət edə bilərsiniz

“Olimpiya dünyası”- idmanımızın aynası

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

## “Vətənin sabahı vətənpərvər yeniyetmə və gənclərin əlindədir”

Səh. 4

## *Anons*

Milli Məclisin gənclər və idman komitəsinin ilk iclası keçirilib — Səh.2

*Pəhləvanlarımız “Təxti kuboku”nda 3 medal qazandılar* — Səh.2

*“Yaşamaq ümidi və idman məni həyata qaytardı”* — Səh. 5

Futbol ehtirasları — Səh. 6

*Davosda tarixi müqavilə* — Səh. 7

## Milli Məclisin gənclər və idman komitəsinin ilk iclası keçirilib

Yanvarın 25-də Milli Məclisin gənclər və idman komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

Komitənin sədri Ülvi Quliyev gündəlikdəki məsələlər barədə məlumat verib. 2018-ci ilin payız sessiyasının yekunlarından bəhs edən Ülvi Quliyev bildirib ki, hesabat dövründə komitənin 3 iclası keçirilib, 5 məsələ müzakirə edilib. Sessiya ərzində komitəyə daxil olan müraciətlər müvafiq ünvanlara göndərilib, vətəndaşlar qəbul edilib. Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

Daha sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan qanunvericilik işləri planı müzakirə olunub və təsdiqlənib.

Daha sonra "Gənclər siyasəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edilib. Qeyd edilib ki, bu gün dünyada gedən ictimai siyasi proseslər istənilən ictimai sferanın inkişafını stimullaşdırır. Qanunvericilik bazasının təkmilləşdirilməsi bu inkişafı şərtləndirən əsas amillərdən biri olduğu üçün hüquqi bazanın müasir tələblərə uyğunlaşdırılması qarşıda duran önəmli vəzifələrdəndir. "Gənclər siyasəti haqqında" Qanunda ediləcək dəyişikliklər də məhz bu vəzifələri ehtiva edir.

Diqqətə çatdırılıb ki, layihənin zəruriliyini əsaslandıran iki fundamental hüquqi sənədin biri Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 7 iyul tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə", digəri isə dövlətimizin başçısının 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət proqramlarının həyata keçirilməsi üzrə tədbirlər planlarıdır. Gənclərlə iş sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və gənclər siyasətinin həyata keçirilməsinin səmərəliliyinin artırılmasını ehtiva edən bu iki sənədin müvafiq olaraq 6.1.1-ci və 5.11.1-ci yarımbəndləri ilə normativ hüquqi aktların gənclərlə bağlı müddəalarının təhlili və onların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması tədbir kimi müəyyən edilib.

Müzakirədən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

## FİG-in məşqçilik kurslarının nəticələri açıqlanıb



Azərbaycan Gimnastika Federasiyasının yerli məşqçilər üçün təşkil etdiyi və Beynəlxalq Gimnastika Federasiyası (FIG) Akademiyası tərəfindən keçirilən kişi idman gimnastikası üzrə 2-ci dərəcəyə aid məşqçilik kurslarının nəticələri açıqlanıb.

Bakıda keçirilən kurslarda iştirak edən 12 məşqçimizin hər biri imtahanları uğurla verərək, məşqçilik üzrə 2-ci dərəcəyə sahib olublar.

Qeyd edək ki, həm nəzəriyyə, həm də təcrübi hissələrindən ibarət olan kurslarda biomexanika, anatomiya və psixologiya mövzuları üzrə təlimlər FİG-nin mütəxəssisləri Levit Andrey (Polşa) və Kris Evans (Böyük Britaniya) tərəfindən keçirilib.

## Karateçilərimiz Parisdən gümüş medalla qayıdırlar

Yanvarın 25-27-də Fransanın paytaxtında Karate1 Premyer Liqasının "Paris Open" mərhələsi keçirilib. Yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız turniri 1 gümüş medalla başa vurub. Çənəsindən və burnundan zədə alan milli komandanın lideri Rafael Ağayev (-75 kq) nüfuzlu turnirin gümüş medalına sahib çıxıb. Bundan başqa R.Ağayev Dünya Karate Federasiyasının (WKF) ötən mövsümün ən yaxşı idmançıları üçün təsis etdiyi "Grand Winners"in mükafatçılarından biri olub. Namizədlərə mükafatları Yaponiyanın Fransadakı səfiri Masato Kitera və WKF-in prezidenti Antonio Espinos, həmçinin təşkilatın baş katibi Toşixisa Naqura təqdim edib.



Yarışda iştirak edən milli komandanın digər üzvlərindən Firdovsi Fərzəliyev (- 60 kq), Rafiz Həsənov (-67 kq), Turqut Həsənov, Pənah Abdullayev (ikisi də - 84 kq) və Nuranə Əliyeva (- 50 kq) təsəlliverici görüşlərdə iştirak etsələr də nəticədə medal qazanmaq şansını əldən veriblər.

"Kiçik dünya çempionatı" adlandırılan "Paris Open" turnirində 82 ölkədən 776 idmançı iştirak edib. Beynəlxalq hakim Cahangir Babayev, məsul final görüşlərini idarə edən referilər arasında olub. Karateçilərimizin növbəti rəsmi yarışı fevralın ortaları Karate1 Premyer Liqasının Dubay mərhələsi olacaq.

## Pəhləvanlarımız "Təxti kuboku"nda 3 medal qazandılar

İranın Əndimeşk şəhərində keçirilən yunan-Roma güləşi üzrə "Təxti kuboku" yarışlarına yekun vurulub.

39-cu dəfə təşkil olunan ənənəvi yarışda ölkəmizi yığmamızın böyük məşqçisi Rövşən Bayramov və məşqçi Emin Əhmədovun rəhbərliyi altında 10 güləşçi təmsil edib. İran, Azərbaycan, Gürcüstan, Ermənistan, Kuba, Çin, Xorvatiya, Serbiya və Fələstin pəhləvanlarının mübarizə apardığı turnirdə Azad Əliyev (72 kq) gümüş, Ziyad Zeynalov (55 kq) və Arif Niftullayev (97 kq) isə bürünc medal qazanıblar. Mikayıl Rəhimov (60 kq), Zaur Nuriyev (63 kq), Kərim Cəfərov (67 kq) və Elməddin Ramazanov (82 kq) beşinci yerlə kifayətləniblər.



Komanda hesabında milimiz 134 xalla 2-ci yeri tutub. İran (240) birinci, Gürcüstan (109) isə üçüncü olub. Qeyd edək ki, III dərəcəli beynəlxalq hakimimiz Elgün Məmmədov yarışda ədaləti qoruyub.

## Üzgüçülər xatirə turnirində qüvvələrini sınayıblar

Nərimanov rayonunda şəhid Fəxrəddin Qurbanlının xatirəsinə həsr edilmiş üzgüçülük turniri keçirilib.

Turnirdə, əvvəlcə, Azərbaycanın azadlığı, istiqlaliyyəti və müstəqilliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Turnirin açılış mərasimində Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov və Bakı Modern Təhsil Kompleksinin direktoru Mina Əliyeva çıxış edərək yarış iştirakçılarını salamlayıb və onlara uğurlar arzulayıb. Natiqlər qeyd ediblər ki, hər bir dövlətdə güclü ordunun yaradılması tarixi zərurətdir. Güclü ordusu olan dövlət yenilməzdir. Milli Orduda xidmət etmək Vətənə ən şərəfli xidmətdir. Çünki bu ordu Azərbaycanın müstəqilliyinin, onun təhlükəsizliyinin qoruyucusudur.

Sonra çıxış edən şəhid Fəxrəddin Qurbanlının əmisi Afiq Qurbanov və şəhid Mahir Mirzəyevin atası Sabir Mirzəyev bildiriblər ki, 2016-cı ilin Aprel döyüşlərində zabit və əsgərlərimiz böyük hünər və igidlik göstərdilər.

Daha sonra üzgüçülük turnirinə start verilib. Komanda hesabında I yeri "Sərhədçi" İdman Olimpiya Mərkəzinin komandası tutub. "Şüa" İdman Klubunun və Bakı Modern Təhsil Kompleksinin komandaları isə müvafiq olaraq, ikinci, üçüncü yerlərdə qərarlaşıblar.

Sonda qaliblər müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.

## Paytaxtın ən güclü gənc cüdoçuları müəyyənləşdi

"Sərhədçi" İdman Olimpiya Mərkəzində gənclər arasında keçirilən cüdo üzrə Bakı şəhər açıq birinciliyinə yekun vurulub.

İki gün davam edən paytaxt birinciliyində 28 klubdan 277 gənc cüdoçu (247 oğlan və 30 qız) medallar uğrunda mübarizə aparıb.

Yarışın ikinci günü qızlar arasında beş çəki dərəcəsində (48 kq, 57 kq, 70 kq, 78 kq, +78 kq) qaliblər müəyyənləşib.

Oğlanların mübarizəsində isə 60 kq, 73 kq, 90 kq və +100 kq çəki dərəcələrində yarışan cüdoçular medallar uğrunda mübarizə aparıblar. Paytaxt birinciliyində fərqlənənlərə medallar, Azərbaycan Cüdo Federasiyasının, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin diplomları təqdim olunub.

## Gəmiçiliyin əməkdaşları stolüstü tennis yarışlarında

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) əməkdaşları arasında stolüstü tennis turniri keçirilib. Yarışda ASCO-nun Xəzər Dəniz Neft Donanması, Dəniz Nəqliyyatı Donanması, İstehsalat Xidmətləri İdarəsi, "Bibiheybət" Gəmi Təmiri Zavodu, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu, Azərbaycan Dövlət Dəniz Akademiyası, Təlim-Tədris Mərkəzi və ASCO Mühafizənin stolüstü tennis həvəskarları qüvvələrini sınayıblar. Yarış gərgin idman mübarizəsi şəraitində keçib. Turnirdə qalib gələn idmançılar diplomlarla təltif olunublar.

## "Velosiped sür, hərəkətə sən də qoşul" layihəsinə start verilib

Respublika Olimpiya Velosiped Məktəbinin təşkilatçılığı, Azərbaycan Velosiped İdmanı Federasiyası, "Gənc Velosipedçilər" İctimai Birliyi və Əlil Velosipedçilər Klubunun dəstəyi ilə 90 günlük aktivlik kampaniyası çərçivəsində Bakı şəhərində yerləşən ali və orta təhsil müəssisələrinin tələbə və şagirdləri arasında "Velosiped sür, hərəkətə sən də qoşul" layihəsi start götürüb.

Velosiped idmanına marağı daha da artırmaq üçün "Velosiped idmanının sağlamlıqda rolu və ondan istifadə qaydaları" mövzusunda seminar-təlimlərə Nəsimi rayonu 5 saylı orta məktəbdə start verilib. Tədbir zamanı məktəbin 200-ə yaxın şagirdi arasında təbliğat və təşviqat işləri aparılıb.

Layihənin əsas məqsədi 3 ay ərzində 10.000 nəfərə yaxın tələbə, şagird və valideyn arasında təbliğat və təşviqat işləri aparmaqla kütləviliyi artırmaq və velosiped idmanına axını daha da gücləndirməkdir.



## "Land of Fire" dünya kubokunda üçüncü olub

İsveçrənin Sankt-Moritz şəhərində keçirilən ənənəvi qış polosu üzrə "Snow Polo World Cup St. Moritz" dünya kuboku turnirinin həlledici oyunları keçirilib. Heydər Əliyev Fondunun dəstəyi ilə turnirdə ölkəmizi "Land of Fire" komandası təmsil edib.

Komandamız keçirdiyi 3 oyundan ikisində qalib gəlib. "Land of Fire" son oyunda turnirin 13 qat çempionu "Cartier" komandası ilə növbəti dəfə qarşılaşaraq 5:0 hesabı ilə qalib gəlib. Beləliklə, "Land of Fire" komandası turnirdə üçüncü yeri tutaraq Avropa polo meydanlarında Azərbaycanı layiqli təmsil edərək milli atçılıq idmanı tarixinə növbəti töhfəsini verib.

Bu turnir İsveçrənin ən məşhur qış kurortlarından biri olan Sankt-Moritz şəhərində ənənəvi olaraq 35-ci dəfə təşkil olunub. Bu dünya kuboku turniri həm də milli mədəniyyətimizin, qədim tariximizin və müasir inkişafımızın təbliği, ölkəmizin turizm potensialının tanıdılması üçün də xüsusilə əlamətdar olub.

Turnir boyu hər gün tamaşaçılara Əməkdar məşqçi Azər Həmzəyevin və Əməkdar artist, xoreoqraf Nailə Məmmədzadənin rəhbərliyi ilə Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin rəqs ansamblının ifasında Əməkdar artist Nicat Kazımovun quruluş verdiyi "Odlar Yurdu - Azərbaycan" adlı unikal şou-kompozisiya nümayiş olunub.



Kompozisiya zamanı polonun vətəni Azərbaycanın atçılıq ənənələri, Odlar Yurdunun füsunkar təbiətə, qədim mədəniyyətə malik olmaqla yanaşı, güclü idmançılar diyarı kimi tanınması Avropa tamaşaçılarına nümayiş etdirilib. Süvarilər dəstəsinin və rəqs ansamblının əzəmətli və təkrarolunmaz çıxışları tamaşaçıların zövqünü oxşayıb, milli musiqimizin ecazkar sədaları onların duyğularını coşduraraq şaxtalı havada əsl Odlar Yurdu hərarətini hiss etdirib.

Qarabağ atları üzərində süvarilərimizin inanılmaz və möhtəşəm çıxışları, rəqqaslarımızın heyranedici rəqsləri böyük coşqu ilə qarşılanıb.

Azərbaycanın qədim tarixinin və mədəniyyətinin tərənnüm olunduğu pavilyonda ölkəmizin keçmişi və bu günü, sürətli inkişafı, turizm potensialı haqqında tamaşaçılara milli musiqimizin sədaları altında ətraflı məlumat verilib, məxsusi olaraq bu turnir üçün hazırlanmış bukletlər paylanıb. Pavilyonun qarşısında rəqs ansamblının ifasında milli rəqslərimiz tamaşaçıların böyük marağına səbəb olub.

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən təşkil edilmiş "Azerbaijan - Take another look" pavilyonunda ziyarətçilərin ölkəmizi canlı izləməyi üçün unikal imkan yaradılıb. Belə ki, VR texnologiyası sayəsində hər kəs Azərbaycanın gözəlliyi ilə tanış olmaq fürsəti əldə edib. Lahıc misgərliyi və Şəki şəbəkə sənətkarlığı nümunələri, xalçalar, caz üslubunda milli musiqi fonunda Azərbaycanı əks etdirən fotolardan ibarət sərgi qonaqların diqqətini cəlb edib. Pavilyon qarşısında rəqs ansamblının ifasında milli rəqslərimiz böyük diqqətə səbəb olub, tamaşaçılar rəqqaslarımızla birgə yallı gedərək rəqs ediblər. Pavilyonu ziyarət edən hər kəsə Azərbaycan barədə yeni çap olunmuş broşürlər təqdim olunub.

*Qılıncoynatma*




## Dünya kubokunun mərhələ yarışına yekun vurulub

ABŞ-ın Solt Leyk Siti şəhərində qadınlar arasında qılıncoynatmanın sablya növü üzrə dünya kubokunun mərhələ yarışı başa çatıb. Turnirin sonuncu günündə komanda yarışında qalibin adına aydınlıq gəlib. Səbinə Kərimova, Sevil və Sevinc Bünyatova bacılarından ibarət komandamız 1/16 final mərhələsində Türkiyə yığmasına 45:44 hesabı ilə qalib gəlib. 1/8 finalda Fransa sablyaçılarına 25:45 hesabı ilə uduzan komandamız 9-16-cı yerlər uğrunda görüşdə İspaniyaya 21:45 hesabı ilə məğlub olub. Sablya üzrə qadınlardan ibarət yığma komandamız 13-16-cı yerlər uğrunda qarşılaşmada Honkonqa 42:45 hesabı ilə uduzsalar da, gərgin keçən 15-ci yer uğrunda görüşdə Böyük Britaniya millisinə 45:44 hesabı ilə qalib gəlməyi bacarıb.

Beləliklə, sablyaçılarımız turnirdə 15-ci yeri tutublar.

*Güləş*

## Oğuz rayonunda güləş üzrə xatirə turnirinin qalibləri bəlli olub

Oğuz rayon Gənclər və İdman İdarəsi və Uşaq Gənclər İdman Şahmat Məktəbinin (UGİŞM) təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 29-cu il dönumu ilə bağlı yeniyetmə və gənclər arasında sərbəst güləş yarışı keçirilib.

Oğuz Olimpiya Kompleksində keçirilən xatirə turnirində 7 məşqçinin rəhbərliyi altında 74 idmançı qüvvəsini sınayıb. Əvvəlcə yarış iştirakçıları və rəsmi qonaqlar şəhidlərimizin ruhunu bir dəqiqəlik sükutla yad ediblər. Yarışı giriş sözü ilə Oğuz Rayon Gənclər və İdman İdarəsinin rəisi Ramiz Mahmudov açıb. Sonra UGİŞM-nin direktoru Nizami Hüseyni çıxış edib. Yarışın nəticələrinə görə 46 kq çəki dərəcəsində



çıxış edən Daşdəmir Umarov, 66 kq çəkidə Cəmil Şərifli Cəmil, 70 kq çəkidə isə İsmayıl Şərifov qalib adına layiq görülüblər.

Mükafatalayiq yerlər tutan pəhləvanlar Oğuz rayon Gənclər və İdman İdarəsi tərəfindən medal, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

*Xəbərlər*

## Tailand dünya çempionatına ev sahibliyi etməkdən məhrum oluna bilər

Tailand ötən il Aşqabadda keçirilən ağırlıqqaldırma üzrə dünya çempionatında dopinq qalmaqalına görə, bu il keçiriləcək mundiala ev sahibliyi etməkdən məhrum edilə bilər.

Bu barədə Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) İcraiyyə Komitəsinin üzvü Maksim Aqapitov bildirib.

Belə ki, IWF yanvarın 23-də tailandlı üç dünya çempionunun dopinq testinin müsbət nəticə verdiyini açıqlayıb.

"Tailandlı atletlər arasında müsbət dopinq testlərinin aşkarlanması məsələsi çox aktualdır. Bir ildə Tailandın iki nümayəndəsində iki müsbət dopinq testi aşkar edilib. Hər halda bu məsələni müzakirə etmək üçün təşəbbüs göstəriləcək. Nəzərə almaq lazımdır ki, dünya çempionatının startına çox az vaxt qalır və yarışa hansı ölkənin təşkilatçılıq edəcəyi aydın deyil", - deyə M.Aqapitov bildirib.

## "Azərsu"dan növbəti qələbə

Qadın həndbolçuların Azərbaycan çempionatında daha bir oyun keçirilib.

Tbilisidə "Olimpiya" komandasının qonağı olan "Azərsu" Gürcüstan həndbolçuları ilə ikinci görüşü də qələbə ilə başa vurub. Bir gün əvvəl 43:21 hesabı ilə qalib gələn Bakı təmsilçisi, növbəti qarşılaşmada da rəqibinə aman verməyib. Matçın əvvəlindən təşəbbüsə yiyələnən "Azərsu" 40:17 hesabı qələbə qazanıb.

On iki oyundan 22 xal toplayan "Azərsu" çempionatın lideridir. İki oyun az keçirən "Azəryol" ikinci pillədədir. "Qarabağ" 12 xalla 3-cü yerdə qərarlaşıb. Dördüncü pillənin sahibi Tbilisi "Olimpiya"sının aktivində 7 xal var. "İdman Akademiyası" 5 xalla 5-ci yerdədir. Autsayder "Gənclər Birliyi" hələ ki xal qazana bilməyib.

*Şahmat*

## FİDE və "World Chess" razılığa gəlib

Beynəlxalq Şahmat Federasiyası (FİDE) "World Chess" şirkəti ilə əməkdaşlığın yeni formatı barədə razılığa gəlib.

Razılaşmaya görə, FİDE 2019-cu və 2021-ci illərin Qran-Pri seriyasından turnirləri istisna olmaqla, dünya çempionu adı uğrunda silsilə turnirlər, o cümlədən iddiaçıların turniri və dünya şahmat tacı uğrunda matç üçün hüquqların sahibi olur. Bu turnirlərin eksklüziv təşkilatçısı isə razılaşdırılmış büdcə ilə "World Chess" olacaq.

"World Chess" FİDE-nin rəhbərliyi ilə dünya şahmat tacı uğrunda matçın silsilə turnirlərinin keçirilməsi (iddiaçıların turniri, dünya şahmat tacı uğrunda matç, şahmat olimpiadaları və Dünya Kuboku yarışları istisna olmaqla) üçün sponsorların cəlb edilməsi üzrə fəaliyyətini davam etdirəcək.

Tərəflər əməkdaşlığın məxfi saxlanılan maliyyə şərtləri barədə də razılığa gəliblər. Yeni saziş səs çoxluğu ilə FİDE-nin Prezident Şurası tərəfindən bəyənilib.

2012-ci ildə FİDE və "World Chess" arasında imzalanmış sazişə görə, şahmat federasiyası dünya çempionu adı uğrunda matç çərçivəsində turnirlərin keçirilməsi üçün eksklüziv hüquqları şirkətə verib.

* * *

Hollandiyanın Veyk-an-Zee şəhərində keçirilən ənənəvi "Tata Steel Masters-2019"un "Masters" turniri yekunlaşıb.

Dünya çempionu Maqnus Karlsen (Norveç) 9 xalla turniri birinci pillədə başa vurub.

Artıq 81-ci dəfə keçirilən nüfuzlu turnirdə Azərbaycan şahmatçıları Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov da iştirak ediblər. Son turda şahmatçılarımızın rəqibləri Rusiya təmsilçiləri olublar. Şəhriyar Məmmədyarov Vladimir Fedoseyev, Teymur Rəcəbov isə Yan Nepomnyaşi ilə qarşılaşıb. Hər iki oyun heçheçə yekunlaşıb.

Turnirin yekununda Teymur Rəcəbov 6,5, Şəhriyar Məmmədyarov 5 isə xal toplayıb.

* * *

Cəbəllütariqdə təşkil olunan beynəlxalq şahmat festivalının "Masters" turnirində Azərbaycan şahmatçıları Arkadi



Naydiç və Rauf Məmmədov beşinci turun oyunlarını keçiriblər.

A.Naydiç son turda isveçli Nils Qrandeliusla sülh bağlayıb. Rauf Məmmədov isə rusiyalı zəka sahibi Valentina Qunina üzərində qələbə qazanıb. Beş turun nəticəsinə görə, Arkadi Naydiçin aktivində 4 xal var. Rauf Məmmədov isə 3,5 xal toplayıb.

* * *

Kişilər arasında şahmat üzrə Azərbaycan çempionatına yekun vurulub. 9 turdan 6,5 xal toplayan Məhəmməd Muradlı ölkə çempionu adını qazanıb. Aktivində 6,5 xal olan İsmayıl Şəhaliyev ikinci yeri tutub. Ülvi Bacarani isə 6 xalla üçüncü pillədə qərarlaşıb.

Qeyd edək ki, 5-ci turdan liderliyi əldən verməyən İsmayıl Şəhaliyev sonuncu turda Nail Bəşirliyə məğlub olduğu üçün çempionluğu əldən verib.

* * *

Hər il ənənəvi olaraq təşkil edilən "Grand Chess Tour" super seriyasının təşkilatçıları 2019-cu il üçün tədbirlər planını açıqlayıblar.

Bu il keçiriləcək seriya 8 yarışdan ibarət olacaq. Turnirə 12 şahmatçı dəvət olunub. Dəvət olunanlar arasında Şəhriyar Məmmədyarov da var. Yarışlarda Şəhriyar Məmmədyarovdan başqa dünya çempionu, norveçli Maqnus Karlsen, amerikalılar Fabiano Karuana, Hikaru Nakamura və Uesli So, fransalı Maksim Vaşe-Laqrav, çinli Dinq Liren, rusiyalı şahmatçılar Yan Nepomnyaşi və Vladimir Kramnik, ermənistanlı Levon Aronyan, hollandiyalı Aniş Giri və hindistanlı keçmiş dünya çempionu Vişvanatan Anand iştirak edəcəklər.

Ümumi mükafat fondu 1 milyon 750 min ABŞ dolları olan turnirin birinci seriyası mayın 6-dan 13-dək Fil Dişi Sahilinin paytaxtı Abican şəhərində keçiriləcək. Sonrakı yarışlar iyunun 24-dən iyulun 9-dək Zaqreb, iyulun 26-dan avqustun 2-dək Paris, avqustun 8-dən 15-dək və 16-dan 30-dək Sent-Luis, noyabrın 4-dən 11-dək Buxarest, 20-dən 27-dək isə Kəlküttə şəhərlərində təşkil olunacaq. Turnirin final seriyası isə noyabrın 30-dan dekabrın 10-dək Londonda keçiriləcək.

# Formula-1

## *F1-də yeni mərhələ - Filippin Qran-Prisi*

Formula-1 yarışlarının rəhbərliyi Filippin Qran-Prisi ticarət markasının qeydiyyata alınması üçün müraciət edib.

Eyni zamanda, Manila Qran-Prisinin qeydiyyata alınması üçün də müraciət olunub. Bu isə o deməkdir ki, sözügedən yürüşlər Filippinin paytaxtında keçirilə bilər. Yürüşün şəhər daxilində, yoxsa stasionar avtodromda keçiriləcəyi hələ dəqiq məlum deyil. Filippində tezliklə yeni trass açılacağı gözlənilir, lakin həmin trass Formula-1 yürüşləri üçün nəzərdə tutulmayıb.

Qeyd edək ki, Filippin Qran-Prisi Cənub-Şərqi Asiya regionunda ikinci yeni mərhələ ola bilər. Bir qədər əvvəl bildirilib ki, artıq 2020-ci ildə Formula-1 dünya çempionatının bir mərhələsi Vyetnamda keçiriləcək. ABŞ-da daha bir Qran-Pri təşkil edilməsi ilə əlaqədar problemlər fonunda "Liberty Media" bu yürüşlərin keçirilməsi üçün yeni yerlər axtarışını davam etdirir.

* * *

Formula-1 çempionatındakı karyerasını başa vurduqdan sonra Niko Rosberq elektrik mühərrikli avtomobillərin təbliği ilə məşğuldur.

O, Formula E yarışlarına sərmayə yatırıb. N.Rosberq əmindir ki, vaxt gələcək, Formula-1 də elektrik mühərriklərinə keçəcək.

"Formula-1-də çıxış edərkən mən tamamilə bütün fikirlərimi öz işimin üzərində cəmləşdirmişdim. Bu mərhələ bitdikdən sonra ətrafa baxaraq fikirləşdim: "Daha nələr var?", - deyə Niko Rosberq Davos İqtisadi Forumunda bildirib. "Hazırda mən tez hərəkətə keçməyi bacarmayanlara bunu öyrətməyə çalışıram. Fikrimcə, bu, mənim güclü cəhətimdir. Mən bunu Formula-1-də öyrənmişəm. Çünki orada hər şey sürətlə baş verir, hətta qərarların qəbulu belə. Avtomobil sənayesində bəzən söhbətlər çox, hərəkətlər isə az olur. Mən bu bacarığımı digər sahələrdə istifadə edə bilərəm. Fikrimcə, bu faydalı olar.

Əgər bütün dünyada elektrik mühərrikli və ya hidrogen yanacaqlı avtomobillər satılarsa, o zaman Formula-1-də əvvəlki kimi avtomobillər benzinlə işləyəcəksə, bu, mənasızdır. Vaxt gələcək, Formula-1 dəyişməli olacaq.

Bir neçə il bundan əvvəl hamı "Ah bu elektrik mühərrikləri!" deyirdi. İndi isə daxili yanma mühərriklərinin ən sadiq pərəstişkarları vəziyyətə daha geniş prizmadan baxırlar. Mənim yeni həyatımda görüləcək çox işlərim var ki, daha mənə Formula-1 karyeramla bağlı suallar verməsinlər. Xeyr, mən yarışlar üçün darıxmıram. Fikrimcə, belə bir nailiyyət əldə etdikdən sonra getmək çox yaxşıdır. Bu, mənə irəli hərəkət etməkdə yardım edir və ola bilər ki, həyatımın sonunadək belə davam etsin", - deyə Niko Rosberq bildirib.

* * *

Formula-1-in beynəlxalq sponsorluğunun rəhbəri Mürrey Barnett bildirib ki, seriyanın təşkilatçıları Çində ikinci Qran-Pri təşkil etmək, onu keçirilən Şanxay mərhələsinə əlavə etmək niyyətindədirlər.

Pekində xüsusi ofisin açılışı da Formula-1 rəhbərliyinin planlarına daxildir.

"Biz qısamüddətli perspektivdə yox, təqvimin həddən artıq yüklənməsini nəzərə alaraq, burada ikinci yürüş keçirmək istəyirik. Belə ki, şübhəsiz, biz Çində daha bir Qran-Pri keçirməyin yolunu tapmaq istərdik. Biz yerli əhali arasında böyük maraq doğura biləcək bir çox amillərə diqqət yetiririk", - deyə Mürrey bildirib.

Barnett qeyd edib ki, Formula-1 yeni mövsümdə "Renault" komandasının inkişaf üzrə pilotu olacaq Çin yürüşçüsü Çjou Quanyuyun irəliləməsini diqqətlə müşahidə edir.

"Biz onu Formula-1-də görmək istərdik. Son sözü komandalar deyəcək, mənim fikrimcə, onlar Çinin




fantastik perspektivləri olmasını etiraf edirlər", - deyə "Sports Mole" Mürreydən sitat gətirir.

* * *

Formula-1 çempionatının 2019-cu il mövsümündə "Force India" bolidinin rəngləri barədə şayiələr dolaşır. Daha əvvəl "Force India" Keniyanın "SportPesa" bukmeker şirkəti ilə sponsor müqaviləsi imzalayıb. Gözlənildiyinə görə, "SportPesa" əməkdaşlığın birinci ilində "Force India"ya 8 milyon dollar, 2020-ci ildə 10 milyon dollar və əgər 2021-ci ildə bir yerdə işləsələr, 12 milyon dollar ödəyəcək.

"Force India"nın indiki baş sponsoru - BWT-nin aqibəti məlum deyil. BWT ilə müqaviləyə görə Formula-1 komandasının bolidinin rəngi çəhrayı olmalı idi.

"Sport Business"dən bildiriblər ki, onun mənbəyinin verdiyi məlumata görə, "Force India"nın bolidi göy-çəhrayı rənglərdə olacaq. Əgər bu informasiya gerçəkdirsə, deməli, "Force India" BWT ilə işləməyə davam edir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# "Vətənin sabahı vətənpərvər yeniyetmə və gənclərin əlindədir"

***Bu gün ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafı dövlətin əsas prioritetlərindəndir. Qazanılan nailiyyətlər, müxtəlif nüfuzlu idman yarışlarına uğurlu ev sahibliyi buna ən bariz sübutdur. Nəinki müxtəlif idman ocaqlarında, klublarda, eləcə də, təhsil müəssisələrində idmanın inkişafı diqqət mərkəzindədir. Belə ali təhsil ocaqlarından biri də Bakı Texniki Kollecidir. Bu ali məktəb 1996-cı ildə Bakı Politexnik və Bakı Maşınqayırma texnikumlarının birləşdirilməsi ilə yaradılıb. Tez bir zamanda kollecin maddi-texniki bazası gücləndirilib və digər ali məktəblər arasında öz mövqeyi, nəticələri ilə seçilməyə başlayıb.***

## "Heç vaxt işimə laqeyd yanaşmamışam"

Hazırda Azərbaycan Texniki Universitetinin (ATU) nəzdində fəaliyyət göstərən Bakı Texniki Kollecində idmana maraq böyükdür. Bir neçə gün əvvəl kollecin "fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı" fənn birliyinin sədri, sərbəst güləş üzrə SSRİ idman ustası, respublikanın Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi Aydın Kazımbəyovla görüşdük. Söhbət zamanı məlum oldu ki, tələbələrin idmana bu dərəcədə həvəs və maraq göstərmələri birbaşa olaraq görülən işlərlə bağlıdır. "Artıq 20 ildən çoxdur ki, kollecin idman müəllimiyəm. İlk vaxtlardan çalışmışam ki, tələbələrin idmana olan münasibətini daha da ciddiləşdirim. Şübhəsiz ki, bu, hər şeydən əvvəl dövlətimizin bu sahəyə göstərdiyi diqqət və qayğı nəticəsində mümkün oldu. Mən də bir idman müəllimi kimi hələ o vaxtlardan yaradılan şəraitdən istifadə edərək yeniyetmə və gəncləri sağlam ruhda tərbiyə etməyə çalışıram. Əlbəttə, əslində bununla sadəcə, vəzifəmi yerinə yetirirəm. Heç vaxt işimə laqeyd yanaşmamışam. Düşünürəm ki, bu, müəyyən qədər mənim idman ruhlu insan olmağımla bağlıdır. Uşaq yaşlarımdan bu günə kimi idman mənim həyatımın ayrılmaz hissəsidir. Həmişə idmandan xeyir görmüşəm. Ona görə tələbələrimizdə də idmanın bu və ya digər növünə həvəs yaratmağa can atıram. Müntəzəm olaraq onlarla söhbət edir, idmanın faydalarından danışıram. Eyni zamanda mənim təşəbbüsümlə dəhliz boyu divara müxtəlif foto-stendlər vurulub ki, bu da yeniyetmə və gənclərin idmana cəlb olunmasında xüsusi təbliğat vasitəsidir. Sözsüz ki, bütün bu işlərin görülməsində kollecimizin direktoru Fərrux Məmmədovun xidmətləri danılmazdır. O, daim tələbə-idmançılarımızın qayğıları ilə maraqlanır, onlara hər cür köməklik göstərir. Buna görə Fərrux müəllimə öz təşəkkürümü bildirirəm", - deyə müsahibimiz bildirdi.

## "Hər şey nizam-intizamdan başlayır"

Filosofların fikrincə, hər bir uğurun təməlində maraq dayanır. Əgər maraq varsa, hər şey mümkündür. Əks halda isə heç bir nəticə əldə etmək olmaz. Bu barədə danışan həmsöhbətimiz dedi ki, müəllimin tələbəsinə diqqət və qayğı göstərməsi onda konkret sahəyə maraq və məsuliyyət yaradılması üçün çox mühümdür. "Həmişə tələbələrimin qayğısına qalmış və onlara qarşı tələbkar olmuşam. Bu zaman idmançı hiss edir ki, müəllimi ona etimad göstərir və həmin etimadı qorumağa çalışır. Məsələn, mən heç bir tələbənin məşqə formasız gəlməsi ilə razılaşa bilmərəm. Çünki bu etinasızlıqdan, diqqətsizlikdən başqa bir şey deyil. Eyni zamanda bu, məşqə, müəllimə və komanda yoldaşlarına hörmətsizlikdir. Əgər bir yeniyetmə bu gün məşqə qarşı laqeyd yanaşırsa, sabah yarışa, rəqibə, təmsil etdiyi komandaya qarşı da həmin münasibəti göstərə bilər. Bu isə məğlubiyyətin ən ciddi səbəblərindən biridir. Mən tələbələrimi qalib kimi yetişdirirəm, onları məğlub görmək istəmirəm.




Doğrudur, bəzən tələbələr mənim tələbkarlığımdan narazı qalırlar. Lakin bir məsələni nəzərə almaq lazımdır ki, hər şey nizam-intizamdan başlayır. Məşqə forma gətirməyən, sıra düzülüşünü bilməyən, verilən komandanı vaxtında yerinə yetirməyən idmançı yarışda necə fərqlənə bilər? Bəziləri düşünür ki, bunlar əhəmiyyətsiz amillərdir. Lakin heç də belə deyil. Hər şey gördüyün işə münasibətdən, diqqətdən başlayır. İkinci bir tərəfdən məlum məsələdir ki, kollecin əksər tələbələri oğlanlardır. Onlar təhsillərini başa vurduqdan sonra hərbi xidmətə yollanırlar. Heç bir idman klubundakı, məktəbdəki rejim hərbi xidmətdəki qədər ciddi ola bilməz. Yəni onlar həm də, hərbi xidmətə hazırlıq keçirlər. Formanı cəld geyinib-soyunmağa, verilən komandanı həmin an dərk edib, etirazsız yerinə yetirməyə vərdiş edirlər. Təsadüfi deyil ki, tələbələrimin bir çoxu ordu sıralarından təxris olunduqdan sonra gəlib mənimlə görüşür, illər əvvəlki tələbkarlığa görə təşəkkür edirlər. Bu, məni çox sevindirir", - deyə Aydın müəllim bildirdi.

## Qələbəyə gedən yolda inam mühüm amildir

Mütəfəkkirlər belə hesab edirlər ki, hansı işə inamla başlayırsansa, o işdə uğur qazanmaq ehtimalı daha çoxdur. Başqa sözlə desək, əgər arzuladığın nəticəni qazanmaq istəyirsənsə, ilk növbədə özün-özünə inanmalısan. Bu, həyatın bütün sahələrində olduğu kimi, idmanda da belədir. Təcrübələr də göstərir ki, yarış zamanı meydana inamlı şəkildə çıxan idmançı adətən rəqibindən üstün çıxış edir. Qeyd etdiyimiz fakt idmanda psixoloji hazırlıqla müşahidə olunur. Təcrübəli mütəxəssislə söhbət zamanı bu mövzuya da toxunduq. O, bildirdi ki, psixoloji hazırlığın yüksək səviyyədə olması əslində göründüyündən daha vacibdir: "İlk növbədə onu deyim ki, insan, eləcə də, idmançı həmişə ən yüksək nəticəni arzulamalı, onun uğrunda mübarizə aparmalıdır. Yəni sən çempion olmaq üçün çalışmalısan ki, yarışı medalla başa vura biləsən. Hətta belə bir söz var ki, general olmaq istəməyən əsgər yaxşı əsgər deyil. Bu mənada idmançı ən maksimal nəticəyə can atmalıdır. Lakin hər insan bunu bacarmır. Gərək gücünə inanasan. Dərk edəsən ki, hər şey sadəcə, hazırlıq səviyyəsindən asılıdır. Özünə inanan idmançı həm də ona inananların, başqa sözlə desək, azarkeşlərinin sayını artırır. Beləliklə, yarışda həmin idmançını dəstəkləməyə gələnlər rəqib azarkeşlərinə nisbətən dəfələrlə çox olur. Psixoloji hazırlıq isə məhz bu zaman özünü daha yaxşı göstərir. Rəqibdə istər-istəməz özünə inamsızlıq yaranır və o, məğlub olur. Psixoloji hazırlıq yarışda çox mühümdür. Mən belə deyərdim ki, psixoloji hazırlığı yüksək olan idmançı artıq 50 faiz irəlidədir. Lakin nəzərə almaq lazımdır ki, psixoloji durumu inkişaf etdirmək heç də asan deyil. Bunun üçün bəzən hətta xüsusi metodlardan istifadə olunur. Həm də hazırlığın bu istiqaməti fiziki, texniki-taktiki hazırlığa nisbətən daha uzun müddət və səbr tələb edir. Deməyim odur ki, psixoloji durumu inkişaf etdirmək bəzən bu sahə ilə məşğul olmayan insanlara asan gəlsə də, heç də elə deyil. Bu həm çətin, həm də vacibdir".

Bütün insanların olduğu kimi, yeniyetmə və gənclərin də zövqləri, maraqları müxtəlifdir. Onlar fərqli idman növlərinə maraq göstərirlər. Bu, müxtəlif amillərlə bağlı ola bilər. SSRİ idman ustası Aydın Kazımbəyovun fikrincə, müxtəlif idman növlərinə maraq olduqca təbiidir və burada heç bir məhdudiyyət qoyula bilməz. "Uşaq, yeniyetmə və gənclərin fərqli idman növlərinə maraq göstərməsinin bir neçə səbəbi ola bilər. Bu, ilk növbədə valideyn yönləndirməsi ilə bağlıdır. Ola bilsin ki, valideyn övladının cüdoçu olmasını istəyir, ona görə övladına bu idman növünün üstünlüklərindən danışaraq, ona cüdonu sevdirir. Yaxud ola bilər ki, valideyn bir idman növü ilə uzun illər məşğul olub və övladının onun yolunu davam etdirməsini istəyir. Başqa bir səbəb kimi fərdin hansısa məşhur idmançıya rəğbətini göstərmək olar. Məsələn, bir yeniyetmə hələ uşaq yaşlarından Messiyə rəğbət bəsləyirsə gələcəkdə futbolçu, Mayk Taysona bənzəmək istəyirsə boksçu olmaq istəyəcək. Düşünürəm ki, hansı idman növü ilə məşğul olmağın o qədər ciddi fərqi yoxdur. Ümumiyyyətlə, mən həmişə idman növlərinə fərq qoymağın əleyhinə olmuşam. Hər bir idman növünün öz üstünlükləri, özəllikləri var. Əsas odur ki, insan sağlam böyüsün, bədən quruluşunun qayğısına qalsın. Mövcud şəraitlə bağlı olaraq kollecimizdə isə atletika və dama idman növlərində uğur qazananların sayı daha çoxdur. Məsələn tələbələrimizdən Murad Paşayev olduqca perspektivli idmançıdır. O, 2015-ci ildə tələbələrin XIII Spartakiadasında 100 metr məsafəyə qaçışda 12.07 saniyə nəticə göstərərək birinci yeri tutub. Həmin il şahmat komandamız respublika spartakiadasında III yerin sahib olub. Həmçinin ötən il dekabrın 28-də orta ixtisas təhsil müəssisələri arasında keçirilən dama üzrə respublika birinciliyində oğlanlardan ibarət komandamız ikinci yerə layiq görülüb. Bundan başqa 2018-ci ilin aprelində yaz çağırışına həsr olunmuş poliotlon çoxnövçülüyü üzrə Bakı şəhər çempionatında komandamız 658 xal toplayaraq ən yaxşı nəticəni göstərib. Həmin yarışda tələbələrimiz Müslüm İbrahimov və Qədir Məmmədli çempion olublar. Ümumiyyətlə, düşünürəm ki, nəticələrimizi qənaətbəxş hesab etmək olar. Bütün bunlar görülən işlərin bəhrəsi olmaqla yanaşı, həm də kollecdə idmana olan maraqdan xəbər verir", - deyə Əməkdar məşqçi əlavə edib.

## Vətənpərvərlik hisslərinin aşılanmasında idmanın böyük rolu var

İdmanın faydaları olduqca çoxdur. O, təkcə sağlamlığın qorunmasına, bədən quruluşunun formalaşmasına xidmət etmir. İdmanla məşğul olmaq eyni zamanda hər bir yeniyetmə və gənci vətənpərvərlik ruhunda tərbiyə edir. Təcrübələr göstərir ki, idmanla məşğul olanlar hərbi xidmətdə də öz yoldaşlarına nisbətən fərqlənirlər. Bu mövzu haqqında danışan Aydın Kazımbəyov Milli Qəhrəman Mübariz İbrahimovu gənc idmançılara nümunə göstərdi: "İdmanla məşğul olanların əksəriyyəti vətənpərvər olurlar. Bu, heç də təsadüfi deyil. Belə ki, onlar hələ məşq edən, yarışa çıxan vaxtdan bayrağın, himnin, gerbin nə olduğunu başa düşür, qələbə uğrunda mübarizə aparırlar. Əslində bu cür təbliğat işi orta məktəbin aşağı siniflərindən etibarən aparılmalıdır. Bu, olduqca vacibdir. Nəzərə almaq lazımdır ki, hər uşaq idmanla məşğul olmur ancaq hamı vətənpərvərvər ruhda böyüməlidir. Vətənin sabahı vətənpərvər yeniyetmə və gənclərin əlindədir. Bizim Mübariz İbrahimov kimi Milli Qəhrəmanımız var. Təsadüfi deyil ki, Mübariz də uzun illər idmanla məşğul olub". Hələ aşağı siniflərdən şagirdlərin vətənpərvər ruhda tərbiyə olunmasının vacibliyindən danışan Aydın müəllim vurğuladı ki, bu iş təhsillə paralel aparılmalıdır. "Doğrudur, məktəblərin əsas



funksiyası təhsil verməkdən ibarətdir. Amma bütün müəllimlər, xüsusilə bədən tərbiyəsi və "Gənclərin çağırışaqədərki hərbi hazırlıq" fənni müəllimləri bu məsələyə xüsusi həssaslıqla yanaşmalıdırlar. İdman müəllimləri şagirdlərdə idmana maraq yaratmalıdırlar. Hər bir uşaq və yeniyetmə üçün təhsil qədər idman da vacibdir. Hətta bir çox hallarda idmanla məşğul olmaq təhsildə yüksək nəticələr qazanmağa kömək olur. Zənnimcə, saatlarla bir otaqda oturub dərs oxumaq, yazı yazmaq heç də düzgün deyil. Hər şeydən əvvəl ona görə ki, şagird və tələbələr oksigenlə lazımi qədər təmin oluna bilmirlər. Nəticədə verilən tapşırığı dərk etmir, məzmununu səhv başa düşürlər. Bunun üçün onların hər yarım saatdan, 45 dəqiqədən bir təmiz havaya çıxıb, yüngül gimnastika hərəkətləri etmələri vacibdir. Başqa bir tərəfdən uşaq və yeniyetmələrin böyük əksəriyyəti parta arxasında yazı yazan zaman bellərini əyirlər. Bu da sonrada skalioz kimi arzuolunmaz xəstəliklərin meydana çıxmasına səbəb olur. Ona görə də idmanla həvəskar şəkildə də olsa məşğul olmaq, zəruri fiziki hərəkətləri etmək lazımdır ki, qamət düzgün olsun".

## İdmançılara nəzəriyyə də başa salınmalıdır

Yeniyetmə və gənclər üçün bədən tərbiyəsi fənninin ideal səviyyədə aparılmasından danışan müsahibimiz qeyd etdi ki, sadəcə, konkret plan üzrə məşq keçməklə uğurlu nəticə əldə olmaz. İdmançı şagird və tələbələrə həm də təlim-məşq prosesinin nəzəriyyəsi haqda məlumat verilməli, bu və ya digər hərəkətin nəyə görə lazım olduğu başa salınmalıdır. O, həmçinin bildirdi ki, bu istiqamətdə də təhsil müəssisələrində tədris olunan bir neçə fənn xüsusi əhəmiyyətə malikdir. "İdman o sahələrdəndir ki, burada nəzəriyyə və təcrübə vəhdətdə inkişaf etməlidir. Mən belə düşünürəm ki, yetirməsinə yalnız, konkret hərəkət və ya fəndi göstərən məşqçi hələ məşqçi-müəllim deyil, o, sadəcə, təcrübəli idmançıdır. Əsl məşqçi-müəllim odur ki, bu hərəkətin nəyə görə lazım olduğunu, yaxud nə üçün təhlükəli olduğunu başa salsın. Mən güləşçi olduğuma görə bu idman növündən adi bir misal çəkim. Adətən yarış zamanı idmançılara tapşırırlar ki, başını aşağı salmaq olmaz. İdmançı bunun səbəbini bilmədiyinə görə məsələyə laqeyd yanaşır və növbəti dəfə yenə eyni səhvi təkrarlayır. Əgər məşqçi-müəllim bunun səbəbini başa salarsa, desə ki, başını aşağı əyəndə rəqibini görmürsən, eyni zamanda onun sənin boynundan yapışıb, fənd tətbiq etməsi daha asan olur, onda idmançı bir daha həmin hərəkətə yol verməz. Eyni zamanda bir sıra idman növlərində olduğu kimi, güləşdə də "güləşçi körpüsü" deyilən bir hərəkət var. Düzdür, yorucu hərəkətdir, dözümlülük tələb edir. Lakin bu hərəkətin çox əhəmiyyətli olduğunu bilən güləşçilər onu həvəslə yerinə yetirirlər. Belə ki, "güləşçi körpüsü" bədəni elastikləşdirir, boyun nahiyyəsini möhkəmləndirir. Beləliklə, görüş zamanı yıxılan idmançı "güləşçi körpüsü" edərək heç bir zədə almır. Əks halda bədənin bu və ya digər nahiyyəsinin, xüsusilə boyunun zədə alma ehtimalı var. Təcrübəmə əsasən bir faktı da deyim, bəzən idmançılar isinmə hərəkətlərinə etinasız yanaşırlar. Lakin yadda saxlamaq lazımdır ki, məşqdən əvvəl isinmə hərəkətlərinin edilməsi olduqca mühümdür. Adından da göründüyü kimi, isinmə hərəkətləri zamanı bədən qızışır, əzələlər oyanır, beləliklə, oynaqlarda burxulma kimi hallara daha az rast gəlinir. Məşqi isinmə hərəkətləri olmadan təsəvvür etmək olmaz. Kifayət qədər belə misal çəkə bilərəm. Bu nümunələrlə onu demək istəyirəm ki, məşqçi-müəllim ən kiçik nüansın belə səbəbini izah etməlidir. Belə olan halda idmançı növbəti dəfələrdə müəlliminin tapşırığını gözləmir, özü nə lazımdırsa, onu da edir. Qeyd etmək istərdim ki, orta məktəblərdə tədris olunan biologiya, anatomiya kimi fənlər də şagirdlərdə idmanla, sağlamlıqla bağlı ilkin təəssüratın yaradılması baxımından vacibdir. İdmanla məşğul olan tələbələrə məsləhət görərdim ki, həmin fənləri diqqətlə oxusunlar", - deyə müsahibimiz vurğuladı.

Göründüyü kimi, Bakı Texniki Kollecinin idman həyatında nizam-intizamdan tutmuş psixoloji hazırlığa qədər bütün məsələlər diqqət mərkəzindədir. Bütün bunlar isə müxtəlif yarışlarda, turnirlərdə əldə olunan nəticələrdə özünü göstərir. SSRİ idman ustası, Əməkdar məşqçi Aydın Kazımbəyov indiyə kimi onlarla mükafata, fəxri fərmana layiq görülüb. Tələbələri də müəllimlərini özlərinə örnək götürərək, onun uğurlarını təkrarlamağa çalışırlar. Buna isə şübhə yoxdur. Çünki çəkilən zəhmət bəhrəsiz qalmır.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

Müsahibə

# “Yaşamaq ümidi və idman məni həyata qaytardı”

***Sənan Əliyev vaxtilə boks, taekvondo, karate, sambo idman növləri ilə məşğul olub. Amma həmişə axtarışda olan bir insan kimi axtardığını qarışıq döyüş növlərində (MMA) tapıb. “Boz qurd” ləqəbli MMA döyüşçüsü dünya və Avropa çempionudur. Amma səhhətində yaranan problemlə əlaqədar idman karyerasına son verməli olub. Onunla yaxından tanış olmaq və keçdiyi yola nəzər salmaq üçün redaksiyamıza dəvət etdik.***



***- Sənan müəllim, istərdik ki, özünüz haqda danışasınız.***

- 1985-ci ildə Füzuli rayonunun Yuxarı Dilağarı kəndində anadan olmuşam. 1993-cü ildə məlum Qarabağ hadisələrindən sonra ailəmlə birgə yurd-yuvamızdan didərgin düşmüşük. Atam Veysi Əliyev könüllülər batalyonunun ilk üzvlərindən biri olub. Uşaqlığımı xatırlayanda atışma, top, mərmi səsləri qulaqlarımda cingildəyir, gözümün qarşısına qraddan tikə-tikə olan döyüşçülər gəlir (kədərlənir). Kənddə ermənilər tərəfindən vurulan əsgərlərin qanının süzülüb kəhrizə töküldüyünü öz gözlərimlə görmüşəm.

Kiçik yaşlarımdan çevik, cəld uşaq olmuşam. Bir yerdə oturmağı sevməzdim. Döyüş taborunda bir əsgər vuruşurdu. Çox qüvvətli bədəni var idi, karate ilə məşğul olurdu. Onun qətiyyətliliyi, iradəli olması diqqətimi çox cəlb edirdi. Özümə söz verdim ki, mütləq idmanla məşğul olacağam. Torpağımız düşmən ordusu tərəfindən zəbt edildikdən sonra Beyləqanda məskunlaşdıq. Əskunlaşdığımız ərazidə əvvəlcə kokşin-karate, sonra boks məşqlərinə getdim. Qardaşım Seymur Əliyev isə taekvondo ilə məşğul olurdu. O, hazırda taekvondo üzrə dünya və Avropa çempionudur. Sonra onun vasitəsilə bacarıqlı mütəxəssis, Turan Do döyüş sənətinin banisi Süleyman Məmmədli ilə tanış oldum.

## “Üçrəngli bayrağımız mənim üçün hər şeydən əzizdir”

***- Axtardığınızı tapa bildinizmi?***

- Mən daim axtarışda olan insanam və axtardığımı tapa bilməyincə sakit durmuram. Özüm üçün yeni şeylər kəşf etməyi sevirəm. Boks, taekvondo, sambo və s. kimi idman növlərini sınaqdan keçirəndən sonra qərara gəldim ki, mənə ən yaxın olanı elə qarışıq döyüş növləridir. 2002-ci ildə Azərbaycan Politexnik Universitetinin avtonəqliyyat fakültəsinə qəbul oldum və 2006-cı ildə bu ali məktəbi bitirdim.

***- Bəs məşqçiliyə necə başladınız?***

- Doğrusunu deyim ki, ali məktəbdə oxuduğum illərdə idmanla məşğul olsam da, məşqçilik etməyi düşünmürdüm. Bir gün qardaşımın dostu məndən xahiş etdi ki, onunla məşq keçim. Mən onu hazırlaşdırmağa başladım. Bir də onda gördüm ki, hardasa 40-45 tələbəm var. Məşqləri AHİTA-nın “Spartak” idman klubunda keçirdik. Süleyman Məmmədli Turan Do döyüş növünü yaratdıqdan sonra uşaq və gəncləri bu idman növünə cəlb etdim. Məşqçilik prosesində bir şeyi yəqinləşdirdim ki, valideyn övladını məşqə çempion olması tələbi ilə gətirəndə heç bir nəticə alınmır. Əksinə, ona dəstək göstərərsə, yanında olarsa nəticəsi müsbət olacaq. Fərid adlı fiziki məhdudiyyətli bir tələbəm vardı. Məşqə gələndə yeriyə bilmirdi. Aradan 10 il keçib və əzmkarlığı sayəsində artıq sərbəst yeriyir, özünü idarə etməyi bacarır. Hazırda “Əsa” teatrının aktyorudur və bizim layihədə iştirak edir.



Bir vətəndaş, məşqçi kimi hər zaman düşünmüşəm ki, torpaqlarımız işğal altında olduğu bir vaxtda sağlam və vətənpərvər gənclərə xalqımızın, dövlətimizin böyük ehtiyacı vardır. Yarışlara “Boz qurd” ləqəbi ilə çıxmışam. Üçrəngli bayrağımız mənim üçün hər şeydən əzizdir. Ukraynada, Türkiyədə yaşadığım müddətdə bayrağıma görə mənfur qonşularımızla hər zaman mübahisələrim olub.

***- Dünya çempionu olduğunuz ili necə xatırlayırsınız?***

- 2014-cü ildə Azərbaycan Hap Ki Do Federasiyasının üzvü kimi İtaliyada təşkil olunan dünya çempionatında iştirak etdim. Yarışları uğurla başa vurub vətənə çempion kimi qayıtdım. Qayıdan kimi məni klub yaratmaq fikri rahat buraxmırdı. Hətta bir dəfə yuxuda gördüm ki, boz qurdla söhbət edirəm və o mənə yol göstərdi. Həmin günün səhəri qərara gəldim ki, uşaqları və gəncləri vətənpərvərliyə, düzlüyə, doğruluğa səsləyən, bu ruhda tərbiyə edən klub açam. Klubun adını da fikirləşmişdim - Alp Turan. Klubun məqsəd və vəzifələri isə bunlar idi: bütün üzvlər bir-birinə dayaq, kömək olmalı, imkanı daha yaxşı olanlar imkansız uşaqlara əlcək, məşq paltarı ilə təmin edilməsində kömək etməlidirlər və s. Müxtəlif federasiyalar klubumuza köməklik göstərdilər, inventarla təmin etdilər. Beləliklə, “Alp Turan” klubu fəaliyyətə başladı. Bizim klubumuzda həmişə şəhid ailəsinin, Qarabağ əlillərinin uşaqları pulsuz məşq keçib.



İşimlə bağlı bir müddət Türkiyədə və Ukraynada yaşamalı oldum. Bu müddətdə klubu qardaşım Seymur idarə edirdi. 2017-ci ildə Ukraynada qaydasız döyüş üzrə peşəkarların Avropa çempionatı keçirilirdi. Həmin yarışda 32 saniyə ərzində rəqibimi məğlub edərək qalib oldum. Səhv etmirəmsə, rəqibimin soyadı Yaşin idi.

## “Təslim olmaq istəmirdim”

***- Xəstəlik sizi necə tapdı?***

- Bakıya qayıtdıqdan sonra adi günlərin birində səhər yuxudan ayılanda hiss etdim ki, sağ tərəfim işləmir. Bu bəlkə də keçirdiyim sarsıntıların nəticəsi, maddi məsələlərlə bağlı problemlərlə əlaqədar idi. Həkimlər xəstəliyimə dəqiq diaqnoz qoya bilmirdilər. Mən isə təslim olmaq istəmir, xəstəliyimlə bağlı internetdə axtarışlar aparırdım. Sən demə, idmanda aldığım zədə bədənimin sağ tərəfinin iflici ilə nəticələnmişdi. Dediyim kimi, təslim olmaq istəmir, müxtəlif idman hərəkətləri edirdim, çalışırdım ki, hərəkətsiz qalmayım. Eyni zamanda, Gənclər və İdman Nazirliyinə (GİN), Milli Məclisə, Prezident Aparatına müəlicəmlə bağlı müraciət etdim. Hamının məndən əlini üzdüyü vaxtda müraciət etdiyim instansiyaların hamısından cavab gəldi. Bu işdə dostlarım mənə mənəvi dəstək oldular. Kuratorumuz Firudun müəllim, Süleyman Məmmədli hər zaman yanımda oldular. Gənclər və idman naziri Azad Rəhimov, GİN-nin idman şöbəsinin müdiri Fərid Mansurov dərdimi anladılar, müalicə alıb sağalıb ayağa qalxmağıma çox köməklik elədilər. İndi qismən sağalsam da, sağ qulağımda və gözümdə müəyyən problemlər hələ də qalmaqdadır. Dövlətimizə, ölkə rəhbərinə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Gənclər və İdman Nazirliyinə minnətdarlığımı bildirirəm ki, mənim sağalıb ayağa qalxmağımda, yenidən cəmiyyət üçün gərəkli olmağımda böyük köməklik göstərdilər. Sağ olsunlar ki, mənim kimi onlarla, yüzlərlə belə xəstə insana kömək ediblər.

Dostlarıma, xeyirxah insanlara minnətdaram. Millət vəkili, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Adil Əliyevə, dünya çempionu Güloğlan Cabbarova təşəkkürümü bildirirəm. Vətənpərvər idmançılarımız, tələbələrim müalicə dövründə maddi və mənəvi dəstəklərini məndən əsirgəmədilər. Gileylənməyi sevmirəm. Nə mümkündürsə, onu özüm öz gücümlə və Tanrının köməkliyi ilə əldə etməyə çalışıram. Sağ olsun, yaxşı insanları.

***- Sizi ruhdan düşməyə qoymayan nə oldu?***

- Yaşamaq ümidi və idman məni həyata qaytardı. İdmanı, hərəkət etməyi bir an belə buraxmadım. Sistem vurulandan sonra yatmağı təklif etsələr də, stadionda qaçır, turnikdən sallanırdım. Bir sözlə, məğlub olmaq fikrim yox idi.

İdmançılar bir anın, dəqiqənin, saniyənin qəhrəmanıdırlar. Əsil insan, idmançı odur ki, o qəhrəmanlığı “ulduz” olandan sonra da davam etdirsin, digərilərinə nümunə, gənclərə örnək olsun.

## “Biz olmaq, birlikdə hər şeyin yaxşısını etmək deməkdir”

***- Başınıza gələnlər sizi bir filmin qəhrəmanına çevirdi?***

- Emeliya Aslanlı (Kristian) məni yaxından tanıyan bir insan və rejissor kimi haqqımda sənədli film çəkmək istədi. Gələcəkdə fikrimiz var ki, həmin ssenari əsasında bədii film də çəkək. Təəssüf ki, idman mövzusu ilə bağlı ədəbiyyatda, kinoda, musiqidə kasadlıq var. Axı idman hər birimizin həyatının bir parçasıdır. Dirijor Niyazi, bəstəkar Fərhad Bədəlbəyli musiqiçi olsalar da, idmanı çox sevirdilər. Hər ikisi ağırlıqqaldırma ilə məşğul olub. Akif İslamzadə, Yalçın Rzazadə də idmana bağlı insanlardırlar. Son vaxtlarda televiziyalarda şou-biznesə daha çox yer verilir, nəinki maarifləndirici mövzulara.

***- Sonra özünüz də film çəkmək qərarına gəldiniz?***

- Doğrudur. Hazırda “Qanlı qələm” serialı üzərində işləyirik. Layihə rəhbəri və baş prodüsser kimi üzərimə böyük məsuliyyət düşür. Serialın ssenari və quruluşçu rejissoru Emil Bayramzadə, ikinci rejissoru isə Emeliya Aslanlıdır. “Qanlı qələm” serialı 16 bölümdən ibarətdir. Serialda səhnəmizin ustad sənətkarları Hacı İsmayılov, Yasin Qarayev, Nurəddin Mehdixanlı, Əjdər Həmidov, Kazım Abdullayev, Mətanət Atakişiyeva, Aslan Şirin kimi aktyorlar yer alıblar. Burada Nəvai Mətin adında rəssama da rol vermişik. Rəşad və Vüsal Mərdanov qardaşları isə idmançıdırlar. Uşaq və gəncləriniz teatr və səhnə əsərlərindən, kinolarımızdan ruhlanmalı, düzgün tərbiyə almalıdırlar. Bunun üçün yüksək səviyyədə iş ortaya qoyulmalıdır.

Düşünürəm ki, biz hər peşə sahibindən, tutaq ki, idmançı, həkim, mühəndis, jurnalist olmazdan öncə vətəndaşıq, azərbaycanlıyıq. Bunu unutmayaq. Şəxsən mən özümü heç vaxt peşəkar idmançı hesab etməmişəm. Nazim Hüseynov, Namiq Abdullayev, Fərid Mansurov kimi Olimpiya çempionları ilə müqayisədə biz neyləmişik ki?!

***- Siz həm də aktyor kimi filmlərdə çəkilmisiniz?***

- Əslində, filmlərə kaskadyor kimi dəvət almışam. Kaskadyorluq çox çətin sahədir. Burada həm aktyor, həm idmançı olmağı bacarmalısan. Türkiyə filmlərində və seriallarında kaskadyor kimi çəkilmişəm.

***- İdmançı olmaq çətindir, ya aktyor?***

- Hər ikisi. Amma idman insan sağlamlığı üçün mühüm önəm daşıdığı üçün çox vacibdir. İdmançı olmaq çox çətindir. Fasiləsiz məşqlər, əzab-əziyyət və s. İdman vərdişindən əlavə, iradə, möhkəm xarakter mütləq vacibdir.

***- Ən çox sevdiyiniz ifadə?***

- Çox danışan az, az danışan çox iş görər.

***- Biz olmaq nədir?***

- Biz olmaq, həmrəy və vətənpərvər olmaq, birlikdə hər şeyin yaxşısını etmək deməkdir. Bir sözlə, azərbaycanlı olmaq deməkdir. Filmlərdə, seriallarda hər şeyin yaxşını verməK, müsbət obrazlar, məsələn, yaxşı qaynana, gəlin, ər obrazı yaratmaq lazımdır ki, cəmiyyət ondan bir nümunə götürsün.

***Səadət Hakıyeva***

---

## Dünya çempionatında ölkəmizi 11 idmançı təmsil edəcək

Parataekvondo üzrə Azərbaycan yığma komandası fevralın 5-6-da Antalyada keçiriləcək dünya çempionatına hazırlaşır.

İdmançılarımız təlim-məşq toplanışını Azərbaycan Taekvondo Federasiyasının idman zalında davam etdirirlər.

Dünya çempionatında ölkəmizi baş məşqçi Fərid Tağızadənin və böyük məşqçi Yaşar Səfərovun rəhbərliyi ilə 11 idmançı təmsil edəcək.

AMPK-nın prezidenti İlqar Rəhimov, vitse-prezidenti, ikiqat Paralimpiya çempionu İlham Zəkiyev, baş katib Kamal Məmmədov, Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayev milli komandanın üzvləri ilə görüşüblər. Komanda üçün yaradılan şərait, məşqlərin gedişi ilə tanış olan federasiya rəsmiləri millimizin ötən illər ərzində qazandıqları nəticələri qeyd edərək, parataekvondoçularımızın dünya çempionatında da uğurla mübarizə aparacaqlarına əminliklərini bildiriblər.

İlqar Rəhimov Azərbaycan Taekvondo Federasiyasının prezidenti, Dünya Taekvondo Federasiyasının vitse-prezidenti Kəmaləddin Heydərovun taekvondonun inkişafına göstərdiyi qayğı və dəstəyi xüsusi vurğulayaraq təşəkkürünü bildirib.

Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayev dünya çempionatı haqqında məlumat verərək komandaya daim dəstək olacaqlarını vurğulayıb.

## Qitə çempionatındakı oyunların təqvimi müəyyənləşib

Qadın voleybolçular arasında Avropa çempionatının təşkilatçıları yarışın təqvimini açıqlayıblar.

Azərbaycan millisi “C” qrupunda Xorvatiya, Hollandiya, Macarıstan, Rumıniya və Estoniya yığmaları ilə birgə mübarizə aparacaq.

Voleybolçularımız ilk oyunu avqustun 23-də Xorvatiya komandasına qarşı keçirəcəklər. Millimiz avqustun 25-də Hollandiya, ertəsi gün Macarıstan, iki gün sonra Estoniya və ayın 29-da isə Rumıniya ilə qarşılaşacaq. Bu qrupun oyunları Macarıstanda təşkil olunacaq.




Qrupda ilk dörd yeri tutan komandalar play-off mərhələsinə vəsiqə qazanacaqlar.

Avropa çempionatı avqustun 23-dən sentyabrın 8-dək Türkiyə, Polşa, Macarıstan və Slovakiyada təşkil olunacaq.

Qeyd edək ki, 2017-ci il Avropa çempionatına Azərbaycan və Gürcüstan birgə ev sahibliyi edib.

## Qüsurlu zəka sahibləri ABŞ-da yarışacaqlar

Beynəlxalq Şahmat Federasiyası (FİDE) fiziki qüsurlu yeniyetmə şahmatçılar arasında üçüncü dünya çempionatının tarixini və keçiriləcəyi məkanı açıqlayıb.

Fiziki qüsurlu yeniyetmə şahmatçılar arasında builki yarış ABŞ-ın Çerri Hill şəhərində iyulun 9-dan 15-dək keçiriləcək. İndiyədək iki dəfə təşkil olunan dünya çempionatları çox maraqlı və gərgin mübarizə şəraitində keçib. Təşkilatçılar növbəti yarışlarda da hər bir idmançının öz potensialını üzə çıxarması və təcrübələrini daha da artırması üçün ciddi səy göstərirlər.

Dünya çempionatı çərçivəsində FİDE-nin əlil idmançılarla iş üzrə komissiyasının sədri Tomas Lüster tərəfindən yeniyetmə şahmatçılar üçün seminarın keçirilməsi planlaşdırılıb.

Olimpiya dünyası



# Futbol ehtirasları

## Gözəl futbol insan hisslərinə hesablanır



Mobil İSMAYILOV

*Əslində futbol ehtirasları izaholunmazdır. Nə yoxdur futbolda?! Emosiyaların hər növü, ürək yanğısı, çırpıntı, ağız büzülməsi, iztirab, digər mənəvi ağrılar... Eyni zamanda da məmnunluq, gözəl anlar, hədsiz sevinc hissləri, heyrət, qanad çalıb uçmaq istəyi, dəlicəsinə bağırtılar...*

Gözəl futbol insan hisslərinə hesablanır. Sevimli komanda qələbə qazananda qeyri-adi sevinc hissləri azarkeşlərin içinə dolur. Sanki ayrı bir aləmə düşürlər onlar. Oyun ərzində qəlblərə, qulaqlara nələr daxil olmur?! Damarlarda, beyinlərdə dolananlar azarkeşləri, tamaşaçıları sanki başqa bir aləmə aparır. Bütün bunlar ölçüyə gəlməyən sevinc hisslərinin anatomiyası deyilmi?..





Parapsixologiya da burada gücsüzdür. Axı, belə anlarda stadiondakı azarkeşlər özlərində olmurlar. Onlar sanki ətrafı görmürlər və hipnoz olurlar. Hətta əksəriyyəti idarəolunmaz dərəcəyə çatır.

Bəs doğma komanda uduzanda?.. Stadiona ağır sükut çökür. Sifətlərdə əzab və ağrı yaşanır. Əsəblər, hisslər tarıma çəkilir. Azarkeşlərin üz-gözündən nifrət, acıq yağır, dişlər qıcanır...

Amma hər iki halda titrəyən, həyəcanlanan, sevinən və bəzən məyus olan azarkeşləri görürük. Udub-uduzmaqdan asılı olmayaraq diqqətlər ancaq meydanda olur, baxışlar yalnız oyunçulara zillənir. Dünyanı lərzəyə gətirən futbolun gücü, əzəməti, fəlsəfi dərinliyi, zənginliyi də elə bundadır.

Harada olmağından asılı olmayaraq azarkeş insandır. Stadiondakılar da insanlardır. Təbii ki, insanlar stadionlarda daha çox duyğulanırlar. Məgər biz öz duyğularımızın, hisslərimizin ağasıyıq?! Yenə də gəlib çıxırıq hisslərin, duyğuların anatomiyasına... Elə azarkeşlər var ki, futbolla yaşayırlar, futbolla nəfəs alırlar. Futbol onları daha tez duyğulandırır... Beləlləri üçün ən sevincli anlar da futbolla bağlıdır...

Lakin stadionlarda mənzərələr təkcə azarkeşlərin öz daxillərində fırtına hiss etmələri ilə bitmir. Meydanlarda da futbolçular tufan, fırtına, qasırğa yarada bilərlər. Amma stadionlarda baş verənlər təbiətdə müşahidə olunanlardan deyildir.

### Pele, Maradona, Ronaldinyo, Messi, Kriştianu Ronaldo futbolun möcüzəsidirlər

Fransa və İtaliya yığmaları arasında keçirilən matçda Zinəddin Zidanın Marko Materatsini başı ilə vurub yerə yıxması səhnəsini yəqin ki, futbol həvəskarları, azarkeşlər yaxşı xatırlayırlar. "Mançester Yunayted" klubunun kapitanı və liderlərindən olan Roy Kin emosional, səbirsiz, çılğın olması ilə bərabər davakarlığı ilə də seçilirdi. O, baş məşqçi Aleks Ferqüsson ilə də yola getmirdi. 2002-ci il dünya çempionatının final mərhələsində kapitanı olduğu İrlandiya yığma komandasının baş məşqçisi Makkarti ilə dalaşdığına görə Kin heyətdən kənarlaşdırıldı və mundialda iştirak etmədi. Alpay Özalan, Karlos Tevez, Mario Balotelli, Mixael Ballak, Quti Fernandes məşqçilərlə yola getməyən, hakimlərlə mübahisə etməyi sevən, daha çox xəbərdarlıq kartı alan, dava-dalaşa meyilli futbolçular kimi tanınmışdılar. Lakin, buna baxmayaraq, azarkeşlər bu futbolçuları çox sevirdilər. Çılğınlıqları ilə seçilən, daim iddialı, mübahisəyə, kobud oyun tərzinə meyilli Frank Riberini, Serxio Ramosu necə sevməyəsən? Azarkeşlər bu oyunçuları da çox bəyənirlər.

2011-ci ildə Çempionlar Liqasının 1/8 finalında İtaliyanın "Milan" və İngiltərənin "Tottenhem" komandaları arasında keçirilən görüşün ikinci hissəsində italyan Qattuzo (hazırda "Milan"nın baş məşqçisidir - müəllifin qeydi) ingilislərin baş məşqçisi Harri Rednapın boğazından tutaraq itələmişdi. Oyundan sonra meydançada toqquşma baş verdi. Qalmaqala yenə Qattuzo səbəb olmuşdu. Belə ki, o, baş məşqçinin köməkçisinə kəllə atmışdı.

Əlbəttə, bu yönümdə söhbət geniş bir mövzunu əhatə edə bilər. Futbol dünyasının şifrələrini açmaq mümkün deyildir.

Futbolun möcüzələri də elə bundadır. Olub ki, adı çəkilən bu məşhur futbol ulduzları boş qapıdan top keçirə bilməyiblər, yüz faizli qol imkanlarını boşa veriblər, penaltidən yararlana bilməyiblər və sairə. Və stadionu sükuta qərq ediblər. Belə bir vəziyyətdə azarkeşlərin, tamaşaçıların ovqatını təsəvvür edin...

Super ulduz olmaqla deyil ki... Həmin anda Allah qol vurulmasını istəmədi. Yəni Allah sadəcə onlar tərəfdə deyildi, vəssalam. Allah belə məsləhət bilәndən sonra heç kim, heç nə köməyə yetə bilməz... Ona görə də deyirlər ki, Pele, Maradona, Ronaldinyo, Messi, Kriştianu Ronaldo məhz Allah vergisidir. Buna inanın! Təsadüfi deyildir ki, bir sıra məşhur futbolçular qol vuran kimi dərhal əllərini göyə qaldıraraq Allaha dua etməklə minnətdarlıqlarını bildirirlər. Bəli, bu futbolçular təkrarsızdırlar, bənzərsizdirlər... Arının hazırladığı bal, hörümçəyin toxuduğu tel kimi... Bu simalar əslində futbolun möcüzəsidir... Bu futbolçuların oyunlarına baxanlar zövq, həzz içində üzürlər sanki...

### Futbolun, futbolçunun üst və alt qatları var

Ona görə də futbol oyunları zamanı azarkeşin, tamaşaçının halı görün nə qədər, neçə dəfə dəyişir?! Necə deyərlər, hər halın öz haləti, dəyişən özəllikləri var. Elə yazımın bu yerində öz ölkələrində müstəsna nüfuz sahibi olmuş Andres İnyestadan və Françesko Tottidən danışmaq istərdim.

Futbol kralı taxtında Messinin, Ronaldonun əyləşdiyi dövrlərdə bir çox futbolçular saray pillələrini qalxsalar da, taxtı ələ keirmək müşkül məsələ idi. Amma bununla belə İnyesta və Totti özlərinə layiq mövqelərə çatmağa nail oldular. Vaxtı ilə Pele, Maradona, Ronaldinyo, sonralar da Messi, Ronaldo azarkeşləri "sərxoş" edə biliblər. İnyesta, Totti zirvəyə yüksəlsələr də, həmin mərtəbəni fəth etmək mümkünsüz görünürdü. Amma azarkeşlər, mütəxəssislər onları da böyük futbolçular kimi qəbul etdilər. Çünki onlar da sadəcə, möhtəşəm idilər. Hər ikisi qeyri-adi oyun stili, bacarıqları, xoşbəxtlik duyğuları yaratmaq qabiliyyətləri ilə seçilməklə futbolsevərləri heyrətə gətirirdilər. Onların elə oyunları olub ki, azarkeşlərin, tamaşaçıların halı dəyişib. Stadiondakılar sanki real dünyadan üzülüb naməlum cazibələr dünyasına düşüblər. Onlar həm zahirən, həm də daxilən qəbul ediliblər. Futbolun, futbolçunun üst və alt qatları var. Bu futbolçularda alt qatlar daha parlaq, nəzərəçarpan olub. Şəxsiyyət, keyfiyyət qatları olan alt qatlar onlarda çox mükəmməl olduğuna görə nəinki öz ölkələrində, ümumiyyətlə, futbol dünyasında daha çox qəbul edilirlər. Ona görə də azarkeşlərin ruhuna birdəfəlik hopublar... Ona görə də yaddaşlarda qalırlar...













### Onlar stadiondan ağlaya-ağlaya getdilər...

Maradona, Ronaldinyo, Messi kimi futbolçularda izaha gəlməyən sehirlilik olub. Öz iç dünyaları, hissləri, psixologiyaları ilə fərqli görünən və başqalarını üstələyən İnyestada, Tottidə bu sehirlilik olmasa da, ən azından bu iki futbolçu da "göz yaşardıcı" keyfiyyətləri ilə tarixə düşüblər. Əslində futbol ulduzlarının hamısı bir ünvana üz tutur-böyük futbola. Amma hər biri bu yolda, necə deyərlər, özünün zəhməti, əziyyəti hesabına açdığı cığırla və özünəməxsus formada gedir. Həm İnyestada, həm Tottidə sanki bir futbol yanğısı vardı. Necə deyərlər, canıdildən oynayırdılar. Ürəklə, cəsarətlə oynayıblar. İspaniyada hamı İnyestaya rəğbət bəsləyirdi: katalonlar, basklar, ispanlar... İnyestanın qazandığı ən böyük sevgi bütün İspaniya azarkeşləri oldu.

21 aprel 2018-ci il tarixdə İspaniya kral kubokunun finalında "Barselona" "Sevilya" komandasına 5-0 hesabı ilə qalib gəldi. Dördüncü topu İnyesta vurdu. Çox gözəl qol alındı. İnyesta Kataloniya klubunda sonuncu kubok oyununu keçirdi. Artıq onun "Barselona"da karyerasını bitirəcəyi məlum idi. 88-ci dəqiqədə əvəzlənən İnyesta görüşün keçirildiyi Madridin "Vanda Metropolitano" stadionunda bütün azarkeşlərin, qonaqların, hətta rəqib komandanın ehtiyat skamyasının üzvlərinin alqışları altında göz yaşlarını saxlaya bilmədi. Hamı onu ayaqüstə yola saldı...

2018-ci ilin mayında mövsümün son oyununda İnyesta "Real Sosyedad" komandası ilə matçda kapitan sarğısı ilə meydana çıxdı. Bu, onun "Barselona"da axırıncı oyunu oldu. Son turda doğma azarkeşləri önündə o, yenə də kövrəldi və göz yaşlarını saxlaya bilmədi. Oyunun bitməsinə on dəqiqə qalmış o, alqış sədaları altında əvəzlənərək meydanı tərk etdi. Bütün stadion ayaqüstə onu yola saldı. Həqiqətən, çox kövrək səhnələr idi...

Totti də vətənində, doğma şəhərində müstəsna sevgi qazanmışdı. Futbolçu keyfiyyətlərinin hamısı vardı onda. Gənc yaşlarından başlayaraq məharəti ilə seçilən Totti tezliklə doğma klubunun aparıcı futbolçusuna çevrildi. Sonradan yüksək ustalığı sayəsində o, artıq "Roma"da əvəzolunmaz futbolçu imici qazandı. İllər keçsə də, o, məşqlərdə hamıdan çox öz üzərində işləyirdi. Totti bir klubda oynamağı ilə daim fəxr etsə də, heç vaxt onun başqa futbolçulara, komanda üzvlərinə olan mehriban, səmimi münasibəti dəyişmədi. Bəlkə də, başqa birisi Tottinin yerinə olsaydı, "Roma"da digərlərinə yuxarıdan aşağı baxardı.Tottinin vida mərasimi də çox təsirli idi. Vida mərasimi futbolsevərlərin iç dünyasını titrətdi. Həmişə səbr və təmkini ilə seçilən Totti həmin anlarda özü ilə bacarmırdı. Axı 25 il bir klubun şərəfini qoruyan və azarkeşlərin sevimlisi olan belə anlarda necə göz yaşlarını saxlaya bilərdi?! Həmin gün o, stadionda sanki lirik qəhrəmana çevrilmişdi. O, bir neçə dəfə ürəkdən ağladı: müsahibə verəndə, meydanı tərk edəndə, meydandan kənarda və ailə üzvlərinin yanında. Xüsusən, həyat yoldaşının və uşaqlarının yanında için-için ağlaması lap təsirli idi... Əslində hamı kövrəlmişdi. Ağlayanlar da çox idi. Amma bu, həm də sevinc göz yaşları idi. Totti həm də sevincindən ağlayırdı. Zarafat deyil, Tottini "Roma"nın simvolu da adlandırırlar. 2017-ci il avqustun 1-də onun axırıncı oyuna çıxdığı futbol köynəyi kosmosa göndərildi. 25 il "Roma"nın şərəfini qorumuş Totti hazırda yenə də doğma klubunda çalışır. 2018-ci ilin mayında Romada Tottinin heykəli qoyuldu. Həqiqətən də, böyük xoşbəxtlikdir. Çox uğurlu və maraqlı bir taledir.

### Futbol dahilərinin öz dünyaları olur və onlar bir-birinə bənzəmirlər

Ümumiyyətlə, milyonların sevimlisi olan futbolun kodlarını açmaq mümkün deyildir. Əslində futbolun əsrarəngizliyi də elə bundadır. Heç kəs deyə bilməz ki, Pele necə Pele oldu? Heç kəsə bəlli deyil ki, Maradona niyə dahi oldu? Necə oldu ki, Eysebio, Ronaldinyo adlarını tarixə həkk etdirdilər? Messi niyə belə fantastikdir? Ronaldo niyə asanlıqla və ustalıqla yadda qalan qollar vurur? Ronaldo kimi qol vəziyyətlərindən yararlanan futbolçu varmı? Püyol, Serxio Ramos, Pike, Corco Kellini nədən döyüşməyə qadir olan futbolçulardır? Raul Qonsales, Bekkem, İnyesta, Totti niyə belə ağıllı, düşüncəli təsir bağışlayan futbolçular olub? Niyə onların dördünün də baxışları, təbəssümləri qəlblərini göstərə biləcək qədər mənalı və ifadəlidir? Necə olurdu ki, Didye Droqba həmişə həlledici qolları vurmağı bacarırdı? Niyə bəzi anlarda bəxt məşhur futbol ulduzlarından üz döndərir? Hansı səbəblərdəndir ki, futbol dahilərinin oyunlarına baxanda fikirləşirsən ki, futbol təkcə duyğulandırmır, həm də düşündürür? Niyə futbol dahilərinin hər birinin öz dünyaları olur və onlar bir-birinə bənzəmirlər? Necə olur ki, stadionlarda təsirli hisslər öz işini görür: azarkeşlər sevinirlər, şənlənirlər, kədərlənirlər, ağlayırlar?... Necə olur ki, futbol nəinki istirahəti, hətta yuxunu da poza bilir?...Bütün bunlar sirrdir. Bu suallara cavab tapmaq mümkün deyildir. Mən özüm də bu suallara cavab axtararkən duyğular, hisslər məni məndən alır, arzusunda olduğum, hələlik görmədiyim stadionlara aparır.

### Futbol ehtirasları azarkeşlərin, futbol həvəskarlarının həyatının bir hissəsidir

İstanbul nəhənglərinin arenalarında olmuşam. Almaniyanın Frankfurt, Köln, Düsseldorf şəhərlərində maraqlı futbol oyunlarına stadionlarda baxmışam. Çexiyada, İsveçdə, Kiprdə də stadionlarda futbol oyunlarını canlı izləmək mənə nəsib olub. Milanın məşhur "San-Siro" stadionunda da fantastik futbola baxmaq bəxtimə düşüb. Barselonaya səfərim avqustun əvvəllərinə təsadüf etdiyindən futbol mövsümü artıq bitmişdi. Buna baxmayaraq "Nou-Kamp"a gedərək klubun muzeyinə baxmışam və İnyestanın geyindiyi "8 nömrəli formanı" xatirə olaraq almışam. Ancaq hələ də İngiltərə şəhərlərinin futbol arenalarında olmamışam. Əfsanəvi "Uembli" stadionunda olmağı çox arzulayıram. Məşhur "Old-Trafford"u görmək istərdim... "Red Cafe"də əyləşib nəsə sifariş etmək istərdim... Doğrudan da, futbol ehtirasları azarkeşlərin, futbol həvəskarlarının həyatının bir hissəsidir. Elə mənim bu arzularım da futbol ehtiraslarından doğan hisslərdir...

# FUTBOL



## Fərdi inkişaf akademiyası fəaliyyətə başlayıb

AFFA-nın və UNİCEF-in əməkdaşlığı çərçivəsində "Qızlar bacarır" fərdi inkişaf akademiyası fəaliyyətə başlayıb.

Fəaliyyət çərçivəsində "Əsas həyat bacarıqları" mövzusunda hərtərəfli təlim kurslarına start verilib. AFFA-nın inzibati binasında 17 yaşınadək qızlardan ibarət Azərbaycan milli komandasının üzvləri üçün təşkil olunmuş ilk təlimdə Assosiasiyanın baş katibinin müavini Sərxan Hacıyev və UNİCEF-in Azərbaycan nümayəndəliyinin gənc və yeniyetmələrin inkişafı üzrə mütəxəssisi Aida Aylarova iştirak ediblər.

Təlimlər Hollandiya Krallığının Azərbaycan Respublikasındakı səfirliyinin dəstəyi ilə həyata keçirilən "İdmanın gücündən istifadə etməklə qızların cəmiyyətdə dəyərinin təşviqi" layihəsi çərçivəsində keçirilir.

Uzun müddət davam edəcək akademiya qızların müxtəlif bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Akademiyada kommunikasiya bacarıqları, stressin idarə olunması, qərar qəbuletmə, kibertəhlükəsizlik, sahibkarlığın inkişafı, maliyyə savadlılığı, sağlam vərdişlər və digər mövzularda məlumat veriləcək. Zərurət olarsa, qızların təlimçi-psixoloqla məsləhətləşmələri də təşkil ediləcək.

Təlimin mövzuları UNİCEF-in beynəlxalq eksperti tərəfindən məhz futbolçu qızlar üçün uyğunlaşdırılıb.

## "Futbola Qoşul"ub "Məhəllənin ulduzu" oldu

AFFA-nın "Futbola Qoşul" onlayn qeydiyyat sistemi vasitəsilə qeydiyyata alınanların sayı 155 minə çatıb. Azərbaycan futbol ailəsinin qeydiyyatdan keçən 155 mininci üzvü "Məhəllənin ulduzu" layihəsi çərçivəsində Yasamal rayonu, Süleyman Dadaşov 577 ünvanında AFFA tərəfindən inşa edilmiş süni örtüklü meydançada məşqlərdə iştirak edən 2013-cü il təvəllüdlü Səlim Mahmudovdur. "Məhəllənin ulduzu" layihəsi AFFA tərəfindən inşa edilmiş süni örtüklü meydançalarda müxtəlif yaş qrupuna daxil olan uşaqlar üçün məşqlərin təşkil olunması, onların futbola, sağlam həyat tərzinə istiqamətləndirilməsi, bu idman növünün təbliğatının gücləndirilməsi məqsədi daşıyır. Layihə 6-8 yaşlı uşaqlara həftədə 2 və ya 3 dəfə ödənişsiz olaraq məşq keçmək imkanı verir. Eyni zamanda, bütün məşq ləvazimatları da AFFA tərəfindən təmin olunur. Bu layihəyə xüsusi məşqçilik kursunu bitirmiş, minimum "C" məşqçilik lisenziyası olan məşqçilər cəlb edilib.



## Cənubda futbol dərsi

AFFA və Təhsil Nazirliyinin dəstəyi ilə Lənkəranda yerləşən Teymur bəy Bayraməlibəyov adına 2 saylı şəhər və Qadir Zeynalov adına Darquba kənd orta məktəblərdə "Məktəblərdə futbol dərsi" layihəsinə start verilib. Bu layihədə məktəblərin V, VI və VII siniflərində təhsil alan şagirdlər iştirak edəcəklər.

## "Qarabağ"ın Moskvada təqdimatı keçirilib

Moskvada "Qarabağ" mini-futbol komandasının rəsmi təqdimatı keçirilib. Altı il əvvəl yaradılan komandanın tərkibinə Moskvada təhsil alan azərbaycanlı gənclərlə yanaşı, rusiyalılar da daxildir.

Komandanın yaradıcısı və baş məşqçisi Elnur Vəliyevin sözlərinə görə, komandanın yaradılmasında məqsəd Azərbaycanı Rusiyada layiqincə təmsil etməkdir. "Biz ötən illər ərzində çətin yol keçmişik. Qələbələrimiz və məğlubiyyətlərimiz, hətta komandamızın dağılması təhlükəsi də olub. Bizə inandığına və dəstəyinə görə "Unicorn Challenge" şirkətinə və onun rəhbərliyinə təşəkkürümü bildirirəm", - deyə o, bildirib.

E.Vəliyev vurğulayıb ki, Rusiyadakı erməni diasporu ona maliyyə vəsaiti müqabilində komandanın adını dəyişməyi təklif edib: "Erməni diasporundan bizimlə əlaqə saxlayaraq komandanın adının dəyişdirilib "Arsax" adlandırılması müqabilində maliyyə vəsaiti təklif etmişdilər. Təbii ki, biz bunu rədd etdik", - deyə məşqçi qeyd edib.

Futbol klubunun təqdimatında çıxış edən komandanın direktoru Leyla Səmədova komandaya dəstək olan hər kəsə təşəkkürünü bildirərək, "Qarabağ"ın ümidləri doğruldacağını vurğulayıb.

Təqdimatdan sonra Rusiya Milli Mini-Futbol Liqasında "Qarabağ" ilk oyununu "Lebi" komandası ilə keçirib. Oyun 6-6 hesabı ilə başa çatıb.



## Davosda tarixi müqavilə




İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu çərçivəsində FİFA prezidenti Canni İnfantino, UNESCO-nun baş direktoru Odri Azulay və BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Devid Bizli hər üç qurum arasında əməkdaşlığın inkişafına dair müqavilə imzalayıblar.

Əməkdaşlığın məqsədi uşaqların idmana marağının artırılması, onların inkişafı üçün əlverişli şəraitin yaradılması, futbolun təhsil proqramlarına daxil edilməsidir. Əməkdaşlıq, həmçinin ali futbol qurumunun FİFA 2.0 strateji planı çərçivəsində "Gələcəyə baxış" proqramının hazırlanması, həyata keçirilməsi və inkişafına kömək edəcək. Əməkdaşlıq çərçivəsində FİFA-ya üzv olan 211 ölkədə müəllimlərin məlumatlandırılması üçün onlayn platformaların yaradılması nəzərdə tutulur.

## 7 ölkə qitə yarışı üçün ev sahibliyi uğrunda yarışır

2022-ci ildə keçiriləcək futzal üzrə Avropa çempionatına ev sahibliyi etmək istəyən ölkələrin adları açıqlanıb.

7 ölkə - Fransa, Qazaxıstan, Bosniya və Herseqovina, Hollandiya, İsveç, Portuqaliya və Litva qitə birinciliyini təşkil etmək üçün UEFA-ya müraciət edib. Qalib ölkənin adı bu il sentyabrın 24-də keçiriləcək UEFA-nın İcraiyyə Komitəsinin iclasında müəyyənləşəcək.

Qeyd edək ki, 2022-ci ildə keçiriləcək Avropa çempionatında ilk dəfə 16 komanda iştirak edəcək.

## Transfer xəbərləri

"Atletiko"nun "Çelsi"dən icarəyə götürdüyü Alvaro Morata artıq Madriddə gəlib. İspaniyalı hücumçu sabah tibbi müayinədən keçdikdən sonra rəsmi müqaviləyə imza atacaq. 26 yaşlı forvard mövsümün sonuna kimi paytaxt klubunun formasını geyinəcək.

Qeyd edək ki, 2017-ci ilin yayında "Çelsi"yə keçən Morata London klubunda keçirdiyi 72 oyunda 24 qol vurub, 4 məhsuldar ötürmə edib.

* * *

Madrid "Atletiko"su Jelson Martinşi icarəyə verib. 23 yaşlı yarımmüdafiəçi mövsümün sonuna qədər "Monako"da çıxış edəcək.

Qeyd edək ki, portuqaliyalı futbolçu bu mövsüm Madrid klubunun heyətində 12 oyuna çıxıb və 1 qol vurub.

* * *

Qış fasiləsində maraqla gözlənilən İvan Perişiç - Məsut Özil dəyişikliyi hələ ki alınmır. Buna səbəb "İnter"in "Arsenal"ın türk əsilli yarımmüdafiəçisindən imtina etməsidir. London klubu italyanlara 2 variant təklif edib. "Topçular" ilk olaraq, xorvatiyalı yarımmüdafiəçini icarəyə götürmək istəyib. Ancaq Milan təmsilçisi bu təkliflə razılaşmayıb. İngilislər son olaraq, qarşı tərəfə Özillə Perişiçi dəyişdirməyi təklif etsə də, "İnter" rəhbərliyi buna da "yox" cavabı veriblər.

Qeyd edək ki, İtaliya klubu 29 yaşlı oyunçunu 35-40 milyon avroya satmaq niyyətindədir.

* * *

PSJ növbəti transferini bitirmək üzrədir. Paris klubu "Zenit"in yarımmüdafiəçisi Leandro Paredeslə müqaviləyə hazırlaşır. 24 yaşlı oyunçu artıq Fransa təmsilçisində tibbi müayinədən keçib. Onun yaxın vaxtlarda 4.5 illik müqaviləyə qol çəkəcəyi gözlənilir.

Bu transfer üçün PSJ-nin Rusiya klubuna 40 milyon avro təzminat ödəyəcəyi iddia olunur.

PSJ "Barselona"dan ayrılmaq istəyən Filipe Koutinyo üçün hərəkətə keçib. Paris klubu Braziliya millisinin üzvünü transfer etmək istəyir. Ötən ilin yanvarında "Liverpul"dan 135 milyon avroya transfer edilən futbolçu "Barselona"da istənilən oyunu göstərə bilmir. 26 yaşlı futbolçunun Premyer Liqaya da qayıtmaq ehtimalı var. Koutinyonun sərbəst qalmaq qiyməti 400 milyon avrodur.

* * *

"Beşiktaş" futbolçusu Vaqner Lavla yolları ayırıb. Bu barədə İstanbul klubunun nümayəndəsi Ahmet Kavalcı məlumat verib. O, braziliyalı hücumçu ilə müqaviləni qarşılıqlı razılaşma əsasında ləğv etdiklərini bildirib. 34 yaşlı oyunçunun artıq yeni klubu da müəyyənləşib. O, ölkəsinin "Korintians" klubu ilə 2019/2020 mövsümünün sonuna qədər müqavilə imzalayıb.

Qeyd edək ki, Vaqner Lav iki mövsümdür oynadığı "Beşiktaş"da 29 matçda 11 qol vurmuşdu.

* * *

"Real"ın futbolçusu Marselo Madrid klubunu tərk etmək niyyətindədir. "Marca"nın yaydığı xəbərə görə, 31 yaşlı müdafiəçi klub rəhbərliyindən transferə çıxarılmasını istəyib. İspaniya mətbuatı braziliyalı futbolçunun sabiq komanda yoldaşı Kriştianu Ronaldonunun çıxış etdiyi "Yuventus"a keçmək fikrində olduğunu iddia edir. Qeyd edək ki, 2007-ci ildən "Real"da oynayan Marselo son vaxtlar əsas heyətdəki yerini itirib. Onun müqaviləsi 2022-ci ilin yayına kimidir.

* * *

"Atletiko"nun futbolçusu Dieqo Qodin "İnter"də tibbi müayinədən keçib. 32 yaşlı müdafiəçinin yaxın vaxtlarda A seriyası təmsilçisi ilə rəsmi müqavilə imzalayacağı gözlənilir. Qeyd edək ki, Qodinin müqavilə müddətinin iki il olacağı vurğulanır.

* * *

"Mançester Yunayted"in yarımmüdafiəçisi Xuan Mata "Yuventus", "Barselona" və PSJ-nin transfer hədəfinə düşüb.

Müqaviləsi bu ilin yayında başa çatan 30 yaşlı futbolçu hazırda öz klubunda həftəsinə 170 min funt qazanır. "Qırmızı şeytanlar" isə Mataya daha aşağı maaş verməyi planlaşdırır. Bu isə futbolçunu razı salmır. Buna görə də ispaniyalı futbolçu komandanı tərk edə bilər. Xatırladaq ki, Xuan Mata 2014-də "Çelsi"dən "Mançester Yunayted"ə transfer olunub. O, bu klubunda 200 oyuna çıxıb. Cari mövsümdə İngiltərə çempionatında 2 qol vurub, 2 məhsuldar ötürmə verib.

* * *

"Çelsi"nin futbolçusu Viktor Mozesin "Fənərbağça"ya keçidi rəsmiləşib. 28 yaşlı yarımmüdafiəçi 2019/2020 mövsümünün sonuna kimi icarə əsasında İstanbul təmsilçisində çıxış edəcək. Mozes bu mövsüm Premyer Liqada cəmi 2 matçda oynayıb.

* * *

"Astana" ötən ilin yayında PAOK-dan icarəyə götürdüyü Pedro Enrike ilə yollarını ayırıb. Bu barədə braziliyalı yarımmüdafiəçi şəxsi "İnstaqram" səhifəsində məlumat paylaşıb. Qazaxıstan klubu ilə vidalaşan futbolçu müqavilə ilə məxsus olduğu PAOK-a qayıdıb.

Qeyd edək ki, Pedro ötən mövsüm icarə əsasında "Qarabağ"ın da formasını geyinib. Onun "Astana" ilə yaya qədər müqaviləsi var idi.



# Dünya idmanı

## Canlı efirdə nümayiş olunacaq

Formula-1 avtomobil yürüşləri üzrə müstəqil televiziya kanalı 2019-cu il mövsümü ərəfəsində keçirilən bütün testləri canlı efirdə nümayiş etdirə biləcək. Bu barədə şirkətin mətbuat üçün açıqlamasında məlumat verilib.

Yayım vaxtı komandaların bolidlərinin testi barədə icmal şouları da göstəriləcək.



Xatırladaq ki, testlər üzrə ilk qış sessiyası fevralın 21-dən 28-dək İspaniyanın Barselona şəhərində keçiriləcək. İkinci testlər də fevralın 26-dan martın 1-dək həmin məkanda təşkil olunacaq.

Formula-1 şirkəti vəd edir ki, ona məxsus olan televiziyada proqramların sayı artırılacaq, o cümlədən canlı efirə geniş yer ayrılacaq. Tezliklə bu platformada Formula-1 yarışlarının yeddiqat çempionu Mixael Şumaxerin idmanda keçdiyi yoldan bəhs edən tammetrajlı yeni sənədli film də nümayiş etdiriləcək.

2018-ci il mövsümünün əvvəlindən etibarən Formula-1 televiziyasına 59 ölkədə abunə olmaq mümkün idi. 2019-cu il fevralın 18-dən isə bu siyahıya daha səkkiz ölkə - Kipr, Danimarka, Yunanıstan, Malta, Hollandiya, Norveç, Portuqaliya və İsveç də əlavə olunacaq.



## Yemelyanenko uduzdu

Qarışıq döyüş növləri (MMA) üzrə rusiyalı boksçu Fyodor Yemelyanenko amerikalı boksçu Rayan Beyder ilə qarşılaşıb.

Los-Anceles şəhərində keçirilən Bellator Qran-Prisinin qalibi Rayan Beyder olub.

Amerikalı idmançı görüşü birinci raundun elə ilk dəqiqəsində nokautla yekunlaşdırıb.

Bu, 42 yaşlı Yemelyanenkonun altıncı məğlubiyyətidir. O, 38 dəfə qarışıq döyüş növlərində qalib olub.

35 yaşlı Beyder isə indi iki çəki dərəcəsinin çempionluq kəmərinə sahibdir. Beş dəfə məğlubiyyətlə üzləşən idmançı bu görüşlə 27-ci qələbəsini qazanıb.

## Ramazan bayramına görə təqvim dəyişdi

Afrika Millətlər Kubokunun vaxtı dəyişdirilib. Bu barədə yarışın Təşkilat Komitəsindən "Frans-Press"ə bildirilib. Kubokun təqvimində dəyişikliyə Ramazan ayı səbəb olub. Qitənin şimalındakı bir neçə ölkədən Afrika Futbol Konfederasiyasına müraciətdə Ramazan ayı zamanı oruc tutacaq futbolçuların yarışda çətinlik çəkəcəkləri bildirilib. Buna görə də turnir əvvəlcədən nəzərdə tutulduğu kimi 15 iyun - 13 iyulda deyil, 21 iyun - 19 iyulda keçiriləcək. Xatırladaq ki, bu il Afrika Millətlər Kuboku Misirdə keçiriləcək.

## Qətər millisinin püşkdə bəxti gətirmədi

Futbol üzrə Qətər və Yaponiya millilərinin bu il Braziliyada keçiriləcək futbol üzrə Amerika Kubokunda rəqibləri müəyyənləşib.

2022-ci ildə dünya çempionatına ev sahibliyi edəcək Qətər millisi B qrupunda Argentina, Kolumbiya və Paraqvay yığmaları ilə qarşılaşacaq. C qrupunda yer alan Yaponiya millisinin rəqibləri isə Uruqvay, Ekvador və Çili milliləri olacaq. Turnirin A qrupunda Braziliya, Boliviya, Venesuela və Peru komandaları çempionluq uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, dörd ildən bir keçirilən bu turnirə Cənubi Amerika Futbol Konfederasiyasının (CONMEBOL) üzvü olmayan iki komanda dəvət edilir. Bu təcrübə ilk dəfə 1993-cü ildə tətbiq olunub. İlk dəfə bu turnirə Meksika və ABŞ komandaları qatılıb. Yaponiya millisi 1999-cu ildə Amerika Kubokunda mübarizəyə dəvət alıb. Qətər millisi isə bu turnirə doqquzuncu dəfə dəvət alıb. Ümumilikdə Meksika 10, Kosta Rika 4, ABŞ 4, Yamayka 2, Honduras, Panama və Haiti isə bir dəfə bu turnirə qatılıb.

Turnir iyunun 14-dən iyulun 7-dək Braziliyada keçiriləcək.

## "Australian Open-2019" turnirinə yekun vurulub



Kişilər və qadınlar arasında keçirilən "Australian Open-2019" turnirinə yekun vurulub.

Ümumi mükafat fondu 44,5 milyon dollar olan turnirin qalibi adını serbiyalı Novak Cokoviç və yaponiyalı Naomi Osaka qazanıblar.

Kişilərin final turnirində Novak Cokoviç ispaniyalı Rafael Nadalla üz-üzə gəlib. İki saatdan artıq davam edən görüş serbiyalının qələbəsi ilə başa çatıb (6:3, 6:2, 6:3). Beləliklə, Novak Cokoviç karyerası ərzində yeddinci dəfə "Australian Open" turnirinin qalibi olub. O, tennis tarixində yeni rekorda imza ataraq 73-cü titulunu qazanıb. Maraqlıdır ki, Novak və Nadal 53-cü dəfədir ki, üz-üzə gəliblər. Bunların 28-də Novak, 25-də isə Rafael qalib ayrılıb.

Qadınlar arasında "Australian Open-2019" turnirinin qalibi adını isə Yaponiya tennisçisi Naomi Osaka qazanıb. O, çexiyalı Petra Kvitova ilə üz-üzə gəlib. İki saatdan artıq davam edən görüş Osakanın qələbəsi ilə başa çatıb (7:6, 5:7, 6:4). Yaponiyalı tennisçi ardıcıl ikinci dəfə "Böyük dəbilqə" seriyasından olan yarışda qalib gəlir. O, 2018-ci ildə "US Open" turnirinin qalibi olub. Həmin turnirdə Naomi Serena Uilyamsı məğlub edib.

İyirmi bir yaşlı Naomi Osaka son 25 ildə "Australian Open" turnirinin qalibi olan yeganə yaponiyalı idmançıdır.

## Oyunçu həbs olunub

İngiltərənin "Fulhem" klubunun futbolçusu Abubakar Kamara həbs olunub.

24 yaşlı hücumçu qəsdən sağlamlığa zərər vurmaqda ittiham olunur. İnsident yanvarın 21-də London təmsilçinin bazasında baş verib. Fransalı forvard gələcək karyerasını müzakirə etmək üçün "Fulhem"in icraçı direktoru Alister Makintoşla görüşə gələn zaman mühafizəçilərlə dalaşıb.



İnsidentlə bağlı klubun rəsmi saytında yerləşdirilən açıqlamada bildirilir ki, Kamaranın klubun Motspur Parkdakı bazasına girişi qadağandır: "Hadisəyə dərhal müdaxilə etdikləri üçün polis əməkdaşlarına minnətdarıq. Futbolçunun kluba aid tədbirlərdə iştirakı da qadağandır. Təhlükəsiz əmək şəraitinin təmin olunması naminə istintaqla sıx əməkdaşlıq edəcəyik".

Qeyd edək ki, Kamara daha əvvəl də klub tərəfindən inzibati cəzalarla üzləşib. O, Premyer Liqanın XX turunda "Haddersfild" ilə matçın 82-ci dəqiqəsində topu komanda yoldaşı Aleksandr Mitroviçdən alaraq penaltini qeyri-dəqiq yerinə yetirdiyi üçün irqçi təzyiqlərə məruz qalıb.

olimpnews.az - sizin saytınız



## Dünya çempionu uşaq evində

Qarışıq döyüş növləri üzrə yüngül çəki dərəcəsində (UFC) dünya çempionu Həbib Nurməhəmmədov Qazaxıstanda yerləşən "Tan şolpan" uşaq evini ziyarət edib.

Həbib Nurməhəmmədov yanvarın əvvəlində "İnstaqram" səhifəsində fanatlarının istəklərini yerinə yetirmək arzusunda olduğunu yazıb. Bundan sonra 26 yaşlı Karaqanda sakini Aleksandr Koroqodov UFC çempionunu yardım etdiyi uşaq evinə dəvət edib.



Dünya çempionu fanatının arzusunu tez bir zamanda yerinə yetirəcəyinə söz verib və beləliklə, yanvarın 26-da Qazaxıstana, Karaqandaya uçub.

"Tan şolpan" uşaq evi idmançı ilə fəxr etdiyini deyib: "Həbib bizim qonağımız idi. Çempion uşaqları ziyarət etdi, onlarla görüşdü. Aleksandr Koroqodova bu görüş üçün minnətdarlığımızı bildiririk".

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54;
564-74-19